HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 05 (645) ■ 8 fevral 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev: «Azərbaycan qüdrətli dövlət olduğunu bir daha nümayiş etdirəcəkdir»

*Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2015-ci ildə Bakıda keçiriləcək birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin ilk iclası olmuşdur.*



İclası giriş sözü ilə açan dövlətimizin başçısı Avropa Olimpiya Komitəsinin Baş Məclisinin qəbul etdiyi qərara əsasən 2015-ci ildə birinci Avropa Oyunlarının Azərbaycanda keçiriləcəyini, Bakının namizədliyinin böyük səs çoxluğu ilə dəstəkləndiyini xatırlatmışdır. Bunu böyük tarixi hadisə kimi dəyərləndirən Prezident İlham Əliyev demişdir ki, birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq miqyasda artan nüfuzunun göstəricisidir. Son illər Azərbaycanın özünü dünya miqyasında dinamik inkişaf edən müasir və güclü ölkə kimi təqdim edə bildiyini diqqətə çatdıran dövlətimizin başçısı respublikamızın etibarlı dost və tərəfdaş kimi qəbul olunduğunu da razılıqla qeyd etmişdir: «Bizim beynəlxalq nüfuzumuzun yüksək səviyyədə olmasını, eyni zamanda, BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimiz də təsdiqləyir. Bu da tarixi bir qərar idi. Müstəqilliyimizin 20-ci ildönümünə təsadüf edən bu tarixi qərar, əslində, 20 il ərzində görülən işlərin təzahürü idi. Bu gün Azərbaycan dünya birliyinin bir nömrəli qurumunun üzvüdür və keçən ilin may ayında BMT Təhlükəsizlik Şurasına sədrlik etmişdir. Əlbəttə ki, beynəlxalq mövqelərimizin möhkəmlənməsi və təsir imkanlarımızın genişləndirilməsi sayəsində ölkəmizin gələcək maraqları daha dolğun şəkildə təmin ediləcəkdir. Şübhəsiz ki, Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında verilmiş qərarın əsasında məhz bu amil dayanmışdır».

Prezident İlham Əliyev vurğulamışdır ki, ilk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi barədə qərarın qəbulu ölkəmizin iqtisadi qüdrəti ilə yanaşı, həm də son illərdə respublikada yaradılmış idman infrastrukturu ilə bağlıdır. Dövlətimizin başçısı əmin olduğunu bildirmişdir ki, həyata keçirilən tədbirlər, yeni inşa olunan idman obyektləri ilk Avropa Oyunlarının Bakıda yüksək səviyyədə keçirilməsinə imkan verəcəkdir. Azərbaycanın mötəbər idman yarışlarının təşkili sahəsində böyük təcrübəyə malik olduğunu deyən dövlətimizin başçısı ötən illərdə keçirilən tədbirləri xatırlatmışdır: «Bizim artıq mötəbər beynəlxalq tədbirlərin keçirilməsində gözəl təcrübəmiz vardır. Azərbaycanda mütəmadi qaydada dünya, Avropa çempionatları keçirilmişdir. Keçən il ilk dəfə olaraq futbol üzrə qızlar arasında dünya çempionatı yüksək səviyyədə keçirilmişdir. FİFA və UEFA rəhbərliyi tərəfindən bu çempionatın keçirilməsinə və bizim təşkilatçılıq qabiliyyətimizə çox yüksək qiymət verilmişdir. Yəni biz bu tədbirləri keçirməklə və öz təşkilatçılıq qabiliyyətimizi göstərməklə, bir növ, yeni standartlar tətbiq edirik. Bu, artıq Azərbaycan standartlarıdır».

İlk Avropa Oyunlarının keçirilməsinə cəmi 2 il vaxt qaldığını deyən Prezident İlham Əliyev belə mötəbər yarışlara hazırlığın adətən uzun vaxt tələb etdiyini bildirmişdir: «Azərbaycan isə cəmi 2 il ərzində bütün hazırlıq işlərini yüksək səviyyədə həyata keçirməklə qüdrətli ölkə olduğunu bütün dünyaya nümayiş etdirəcəkdir».

İlk Avropa Oyunlarının keçirilməsinə hazırlıq üzrə Təşkilat Komitəsinin sədri, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva həyata keçirilən və planlaşdırılan işlər barədə ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, I Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmiz, ümumiyyətlə, bütün Avropa Olimpiya hərəkatı üçün tarixi hadisədir. Mehriban xanım Əliyeva vurğulamışdır ki, regionun lider dövlətinə çevrilən Azərbaycanın sürətli inkişafı, dünya birliyində tutduğu mövqe, mövcud ictimai-siyasi sabitlik beynəlxalq ictimaiyyətdə ölkəmizin bu mötəbər tədbirə uğurla ev sahibliyi edəcəyinə əminlik yaradır.

Təşkilat Komitəsinin sədri bildirmişdir ki, I Avropa Oyunlarının 2015-ci ilin iyun-iyul aylarında keçirilməsi nəzərdə tutulmuşdur və bu mötəbər idman tədbirində Avropa Olimpiya Komitəsinin üzv ölkələrinin iştirakı gözlənilir. Qeyd olunmuşdur ki, Avropa Olimpiya Komitəsi ilə əldə olunmuş razılığa əsasən, Bakıda keçiriləcək yarışlarda 5 min nəfərədək idmançının iştirakı nəzərdə tutulmuşdur. Rəsmi nümayəndə heyətinin sayının isə təxminən min nəfər olması gözlənilir. Tədbirin işıqlandırılması üçün Bakıya 2 min nəfərədək beynəlxalq kütləvi informasiya vasitələri nümayəndələrinin gəlişi gözlənilir. Avropa Olimpiya Komitəsi və Avropa idman federasiyaları ilə ilkin razılaşmaya əsasən, I Avropa Oyunlarının proqramına 28 Olimpiya idman növündən minimum 12-si və iki qeyri-olimpiya idman növü daxil olmalıdır: «Yarışların 17 Olimpiya idman növü üzrə keçirilməsi ilə bağlı Avropa idman federasiyalarından niyyət məktubu artıq daxil olmuşdur. Bu idman növlərinə güləş, həndbol, voleybol, gimnastika, çimərlik voleybolu, boks, cüdo, taekvondo, badminton, qılıncoynatma, atıcılıq, kamandan oxatma, stolüstü tennis, üzgüçülük, suyatullanma, su polosu və s. daxildir».

Məlumat verilmişdir ki, I Avropa Oyunlarının rəsmi açılış və bağlanış mərasimlərinin təşkili ilə bağlı dünyanın bu sahədə böyük təcrübəyə malik aparıcı şirkətləri ilə danışıqlar başlanmışdır. Avropa Oyunları tarixinə ilk atributlar kimi daxil olacaq I Avropa Oyunlarının loqotip və şüarının müəyyən edilməsi, simvolun seçilməsi və himnin bəstələnməsi istiqamətində işlər görülür: «Oyunlarda iştirak edəcək idmançıların yerləşdirilməsi məqsədi ilə Atletlər Kəndi yaradılmalıdır. Kütləvi İnformasiya Vasitələrinin nümayəndələri Media Kəndində yerləşdiriləcəklər. Bu ərazidə yaradılacaq mərkəzdə və «Baku Crystal Hall»dakı Media Mərkəzində onlara tələb olunan şərait yaradılacaqdır».

İlk Avropa Oyunlarına hazırlıq üzrə Təşkilat Komitəsinin sədri bildirmişdir ki, tədbirin dünyada təbliği və informasiya dəstəyi qarşımızda duran ən vacib məsələlərdən biridir. Birinci addım olaraq oyunlar haqqında hərtərəfli məlumatı əks etdirən internet portalı hazırlanmalıdır: «Dünya mediasında I Avropa Oyunlarının keçirilməsi barədə informasiyanın yayılmasına, ümumiyyətlə, Azərbaycan haqqında, xüsusilə idman sahəsində əldə olunmuş nailiyyətlərimiz barədə nəşrlərin, reklam çarxlarının hazırlanması, banner və posterlərin quraşdırılmasına geniş kampaniya şəklində bu ildən başlamaq lazımdır. Avropanın və dünyanın nüfuzlu kütləvi informasiya vasitələrinin təbliğat kampaniyasına cəlb olunması, onlarla əməkdaşlıq perspektivləri müzakirə olunmalıdır».

Bildirilmişdir ki, oyunların yüksək səviyyədə keçirilməsi məqsədi ilə müvafiq qurumların nümayəndələrindən ibarət işçi qrup yaradılacaqdır. Hazırda yarışların keçirilməsi ilə bağlı bütün istiqamətləri əhatə edən və hər bir qurumun vəzifəsini müəyyən edən geniş tədbirlər planı hazırlanır. Mehriban xanım Əliyeva sonda əmin olduğunu bildirmişdir ki, I Avropa Oyunları ölkəmizin tarixində mühüm hadisələrdən biri kimi qalacaqdır.

Prezident İlham Əliyev iclasda yekun nitq söyləyərək qarşıda duran vəzifələrdən danışmış, Təşkilat Komitəsinin qısa müddət ərzində mühüm təkliflər hazırladığını vurğulamışdır. Dövlətimizin başçısı iclasda yeni tikiləcək idman obyektləri haqda da geniş məlumat vermişdir: «İlk növbədə, əlbəttə ki, idman obyektləri hazır olmalıdır. Tədbimatda göstərildi, keçiriləcək oyunların yerləri də artıq bəllidir. Ancaq tikilməkdə olan obyektlər də vaxtında istifadəyə verilməlidir. Onların arasında, ilk növbədə, Olimpiya Stadionu, - artıq orada işlər başlanmışdır, - Gimnastika Mərkəzi, - işlər görülür və artıq daş işləri başa çatmışdır, - və Su İdmanı Növləri Sarayının tikintisinə artıq başlanmışdır və əminəm ki, inşası vaxtında bitəcəkdir. Çünki bu da çox vacib bir qurğudur. Təkcə oyunların keçirilməsi üçün yox, eyni zamanda, Bakı şəhərində müasir Su İdmanı Növləri Sarayının tikilməsi çox lazımdır. Bu qərar bir neçə il bundan əvvəl verilmişdir. Hələ Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar yox idi, biz artıq bu işlərə başlamışdıq, layihə hazırlanmışdı, seçiləcək yerlər haqqında fikir mübadiləsi aparılırdı. Nəhayət, Bakının inkişafı üçün hazırlanan Bayraq Meydanından sonrakı ərazidə Su İdmanı Növləri Sarayı tikiləcəkdir».

Prezident İlham Əliyev sonda ümidvar olduğunu bildirmişdir ki, Təşkilat Komitəsi bütün işləri yüksək səviyyədə həll edəcəkdir və Azərbaycan bir daha özünü dünyaya və Avropaya müasir, güclü dövlət kimi tanıdacaqdır.

## 11 Fevral -

Azərbaycanın vergi xidməti işçilərinin peşə bayramı günüdür. Bu münasibətlə bütün vergi xidməti əməkdaşlarını təbrik edir, onlara şərəfli və məsuliyyətli işlərində uğurlar arzulayırıq.

## Səmərəli təşəbbüslər üçün açıq platforma

*Bu gün «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda II Vergi Forumu keçiriləcək*

■ «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusuna həsr olunan II Vergi Forumunda müxtəlif dövlət orqanlarının, Milli Məclisin, beynəlxalq vergi və maliyyə qurumlarının, qeyri-hökumət təşkilatlarının, habelə kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edəcəklər.

■ Son illərdə Vergilər Nazirliyinin təşkilatçılığı ilə keçirilən çoxsaylı konfrans, «dəyirmi masa» və beynəlxalq forumlar bir sıra mütərəqqi cəhətləri ilə təkcə vergi ödəyicilərinin, biznes təmsilçilərinin deyil, ümumən geniş ictimaiyyətin böyük marağına səbəb olmuşdur.

■ Respublikamızda liberal və rəqabətqabiliyyətli vergi sistemi formalaşdırılmış, sərmayəçilər üçün cəlbedici, sadə, eyni zamanda şəffaf və sabit vergi sistemi qurulması istiqamətində əhəmiyyətli tədbirlər görülmüşdür.

■ Vergi sistemində həyata keçirilən islahatların əsas hədəfləri xidmətin texnoloji baxımdan inkişafına nail olmaq, vergi prosedurlarını sadələşdirməklə biznesin inkişafına dəstək vermək, vergi ödəyicilərinin könüllü əməletmə səviyyəsini yüksəltmək, habelə nağdsız ödənişlərin genişlənməsinə nail olmaqdır.

■ «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusuna həsr olunan tədbirin təşkilində məqsəd biznes və vergi orqanlarının nümayəndələri arasında açıq dialoqu daha da genişləndirmək, qarşıda duran vəzifələri, əməkdaşlığın müasir, faydalı formalarını müəyyənləşdirməkdir. Forum «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasından irəli gələn vəzifələrin müzakirəsi baxımından da faydalı olacaq.

Ətraflı 2-ci səhifədə

2 2012-ci ildə vergi daxilolmaları artıb

3 Azərbaycanın vergi sistemi 2012-ci ildə...

4 Vergi işçilərinin uğurlarına sevinirik

5 Vergi Məcəlləsində olunmuş dəyişiklik və əlavələr təqdim edilmiş güzəştlərin həcmi və kateqoriyaları baxımından son illərin ən geniş paketidir

# Vergilər naziri Fazil Məmmədov Türkiyə Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Alper Coşkunla görüşmüşdür

***Yanvarın 31-də vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Türkiyə Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Alper Coşkunu qəbul etmişdir. F.Məmmədov qonağı salamlayaraq nazirliyin Türkiyənin ölkəmizdəki səfirliyi ilə sıx və faydalı əməkdaşlıq etdiyini, bu əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirmişdir. Daha sonra vergilər naziri hər iki ölkənin rəhbərləri arasında olan dostluq və qardaşlıq münasibətlərinin hökumətlər və ayrı-ayrı qurumlar arasında əməkdaşlığın inkişafına da müsbət təsir göstərdiyini vurğulamışdır.***



Səmimi qəbula görə təşəkkürünü bildirən səfir A.Coşkun Türkiyədə bütün qurumlarda Azərbaycana xüsusi münasibətin olduğunu demişdir. A.Coşkun Azərbaycana gəlməzdən əvvəl Türkiyənin biznes və maliyyə dairələrində görüşlər keçirdiyini və bir çox türk iş adamlarının Azərbaycana gəlməkdə maraqlı olduqlarını bildirmişdir. Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsindən, ən müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiq olunmasından və yeni texnoparkların yaradılmasından məmnunluğunu ifadə edən səfir Türkiyənin zəngin təcrübəyə malik olduğu bu sahələrdə əməkdaşlıq üçün kifayət qədər böyük potensial olduğunu vurğulamışdır.

Nazir F.Məmmədov qonağın bu fikri ilə tam şərik olduğunu bildirərək qeyd etmişdir ki, əvvəllər, əsasən, türk iş adamları Azərbaycan iqtisadiyyatına sərmayə yatırdıqları müşahidə olunurdusa, bu gün artıq Azərbaycan şirkətləri, məsələn, SOCAR Türkiyə iqtisadiyyatına kifayət qədər böyük sərmayələr qoyur. O, Türkiyənin Gəlirlər İdarəsi Başkanlığı (vergi administrasiyası) ilə həm ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu, həm də bir sıra beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edildiyi (ECO, ATAİC) barədə məlumat vermişdir. İqtisadi Əməkdaşlıq vəə İnkişaf Təşkilatının (OECD) Vergi Mərkəzinin Ankaradakı təlim kurslarında Vergilər Nazirliyinin əməkdaşlarının da müntəzəm olaraq Avropanın qabaqcıl vergi inzibatçılığı təcrübəsini öyrəndiklərini dilə gətirən nazir Vergilər Nazirliyinin daim Türkiyənin vergi informasiya texnologiyaları sahəsindəki uğurlarını izlədiyini, öz informasiya sistemini də məhz bu təcrübə əsasında qurduğunu qonağın diqqətinə çatdıraraq, hazırda bir sıra Orta Asiya ölkələrinin, o cümlədən Tacikistan və Qırğızıstanın ölkəmizin vergi sistemində tətbiq olunmuş informasiya-kommunikasiya texnologiyaları sahəsindəki təcrübəsindən faydalanmağa çalışdıqlarını bildirmişdir.

Görüşün sonunda vergilər naziri Fazil Məmmədov Alper Coşkuna yeni vəzifəsində uğurlar arzulamışdır.

## *2012-ci ildə dövlət büdcəsinə 5 mlrd. 911,6 mln. proqnoza qarşı 6 mlrd. 25,4 mln. manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 101,9% (113,8 mln. manat artıq) icra edilməsi deməkdir*

# Azərbaycanın vergi sistemi 2012-ci ildə...

## *2012-ci ildə vergi daxilolmaları artıb*

Ötən il ərzində dövlət büdcəsinə 5 mlrd. 911,6 mln. proqnoza qarşı 6 mlrd. 25,4 mln. manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 101,9% (113,8 mln. manat artıq) icra edilməsi deməkdir. Neft-qaz sektoru üzrə dövlət büdcəsinə 2 mlrd. 631,6 mln. manat proqnoza qarşı 2 mlrd. 738,9 mln. manat, qeyri-neft-qaz sektoru üzrə 3 mlrd. 280,0 mln. proqnoza qarşı 3 mlrd. 286,5 mln. manat vəsait ödənilmişdir. 2012-ci ildə 6 mlrd. 25,4 mln. manat faktiki daxilolmanın 1 mlrd. 695,1 mln. manatı dövlət sektoru üzrə, 4 mlrd. 330,2 mln. manatı isə qeyri-dövlət sektoru üzrə olmuşdur. 2012-ci ildə ƏVİ-lər üzrə 414,4 mln. manat proqnoza qarşı 445,5 mln. manat vergi daxil olmuşdur ki, bu da proqnozlaşdırıldığından 31,1 milyon manat (7,5%) çoxdur. İl ərzində ayrı-ayrı tədiyyələr üzrə daxilolmalarda da artım qeydə alınmışdır. ƏDV üzrə 1 mlrd. 482,8 mln. manat proqnoza qarşı 1 mlrd. 483,6 mln. manat, aksizlər üzrə 454,6 mln. manat proqnoza qarşı 454,6 mln. manat, mənfəət vergisi üzrə 2250 mln. manat proqnoza qarşı 2 mlrd. 252,2 mln. manat, fiziki şəxslərin gəlir vergisi üzrə 750 mln. manat proqnoza qarşı 813 mln. manat vəsait ödənilmişdir.

**Arzu İBRAHİMOVA**




# Səmərəli təşəbbüslər üçün açıq platforma

## Bu gün «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda II Vergi Forumu keçiriləcək

*Vergi inzibatçılığı işini yeni dünya nizamının tələblərinə uyğun qurmağa, fəaliyyətində müasir menecment prinsiplərini, informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətlərini səmərəli şəkildə tətbiq etməyə çalışan Vergilər Nazirliyi növbəti peşə bayramı ərəfəsində daha bir mötəbər forum təşkil etməyi planlaşdırır. Belə tədbirlərin ənənə halını alması göstərir ki, nazirlik peşə bayramlarını trafaretdən, şablondan uzaq formada - kreativ vasitələrlə, faydalı müzakirələr şəraitində keçirməyə üstünlük verir.*

Bu gün keçiriləcək «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda II Vergi Forumunda müxtəlif dövlət orqanlarının, Milli Məclisin, beynəlxalq vergi və maliyyə qurumlarının, qeyri-hökumət təşkilatlarının, habelə kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edəcəklər. Vergi sisteminin müxtəlif aspektləri üzrə aktual və səmərəli müzakirələrin aparıldığı, faydalı təkliflərin və ideyaların səsləndirildiyi belə tədbirlər həm də Vergilər Nazirliyinin mütərəqqi iş üslubunun məntiqi nəticəsi sayılmalıdır. Təsadüfi deyildir ki, 2011-ci il sentyabrın 13-də nazirliyin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzinin açılış mərasimində Prezident İlham Əliyev də bu məsələlərə toxunaraq demişdir: «Vergilər Nazirliyində toplanan təcrübə çox qiymətlidir. Mən çox şadam ki, sizin nazirliyiniz müasir əsaslarla idarə olunur, müasir menecment tətbiq edilir, dünya praktikası öyrənilir».

Son illərdə Vergilər Nazirliyinin təşkilatçılığı ilə keçirilən çoxsaylı konfrans, «dəyirmi masa» və beynəlxalq forumlar bir sıra mütərəqqi cəhətləri ilə təkcə vergi ödəyicilərinin, biznes təmsilçilərinin deyil, ümumən geniş ictimaiyyətin böyük marağına səbəb olmuşdur. Vergi mühitinin liberallaşdırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması və zamanın tələblərindən irəli gələn digər islahatlar keçirərkən ictimai rəyi nəzərə alan nazirlik hər bir təklifə həssaslıqla, diqqətlə yanaşır. Əksər hallarda bu cür konfrans və tədbirlərdə səsləndirilmiş faydalı təkliflər, ideyalar vergi qanunvericiliyinin təkmilləşdirilməsi zamanı nəzərə alınır. Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklərin müəyyən qismi də məhz vergi ödəyicilərinin, qeyri-hökumət təşkilatlarının təmsilçilərinin təkliflərini əks etdirir. Bu, Vergilər Nazirliyinin həyata keçirdiyi islahatların və tətbiq etdiyi yeniliklərin vergi ödəyicilərinin marağına hesablandığını, eyni zamanda, onun açıq, şəffaf, çevik bir dövlət qurumu olduğunu göstərir.

Xatırladaq ki, hələ 2012-ci ilin fevralında nazirliyin xətti ilə keçirilmiş I Vergi Forumu kifayət qədər faydalı müzakirələrlə yadda qalmışdı. Tədbir iştirakçılarının əksəriyyətinin çıxışlarında son illər ölkəmizin vergi sistemində ciddi islahatların aparıldığı, respublikada dayanıqlı, yeni dövrün tələblərinə cavab verən vergi inzibatçılığının formalaşdığı, müasir texnologiyaların tətbiq edildiyi xüsusi vurğulanmışdı. Həmçinin, müstəqillik illərində vergi siyasətinin əsas istiqamətlərinin, vergilərin sayının və dərəcələrinin optimal səviyyəsinin müəyyənləşdirildiyi, ölkədə vergi yükünün aşağı salındığı, vergi menecmentinin müasirləşdirildiyi qeyd olunmuşdu.

Ümumi fikir bundan ibarət idi ki, son illər ərzində respublikada liberal və rəqabətqabiliyyətli vergi sistemi formalaşdırılmış, Azərbaycanda sərmayəçilər üçün cəlbedici, sadə, eyni zamanda şəffaf və sabit vergi sistemi qurulması istiqamətində əhəmiyyətli tədbirlər görülmüşdür. Forum iştirakçıları Prezident İlham Əliyevin rəhbərliyi ilə vergi xidmətinin son illər əsaslı modernləşmə prosesindən keçdiyini, onun texnoloji imkanlarının genişləndiyini, vergi inzibatçılığının təkmilləşdirildiyini razılıqla qeyd etmişdilər. Forumda iştirak edən əcnəbi ekspertlər Azərbaycanın vergi sisteminin mütərəqqi model kimi qəbul edilərək bir sıra MDB ölkələrində tətbiq olunduğunu mühüm nailiyyətlərdən biri kimi dəyərləndirmişdilər.

Hazırda vergi sistemində həyata keçirilən islahatların əsas hədəfləri xidmətin texnoloji baxımdan inkişafına nail olmaq, vergi prosedurlarını sadələşdirməklə biznesin inkişafına dəstək vermək, vergi ödəyicilərinin könüllü əməletmə səviyyəsini yüksəltmək, habelə nağdsız ödənişlərin genişlənməsinə nail olmaqdır. Bu baxımdan, respublikanın vergi sisteminin hazırkı vəziyyəti və gələcək inkişaf perspektivlərinə həsr olunmuş növbəti forumun da əhəmiyyətli olacağını söyləmək mümkündür. Belə bir tədbirin təşkilində məqsəd biznes və vergi orqanlarının nümayəndələri arasında açıq dialoqu daha da genişləndirmək, qarşıda duran vəzifələri, əməkdaşlığın müasir, faydalı formalarını müəyyənləşdirməkdir. Forum «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasından irəli gələn vəzifələrin müzakirəsi baxımından da faydalı olacaq.

Beynəlxalq təcrübənin öyrənilməsi, dünyanın vergi sahəsində ixtisaslaşmış qurumları ilə yeni əməkdaşlıq mexanizmlərinin müzakirəsi üçün bu cür tədbirlərin xüsusi əhəmiyyəti var. Forumda Avropa Birliyinin, Dünya Bankının, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının, Vergi Siyasəti və İdarəetmə Mərkəzinin, Beynəlxalq Vergi və İnvestisiya Mərkəzinin təmsilçilərinin iştirakı gözlənilir.

## *Foruma dəvət olunmuş nümayəndələr tədbirin əhəmiyyəti barədə fikirlərini bölüşürlər*

***Akif Musayev, Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi:*** «Müasir dövrdə vergi sistemində aparılan islahatlar iqtisadiyyatın inkişaf dinamikasının tələblərinə cavab verməlidir. Liberal bazar iqtisadiyyatı institutlarının formalaşması, sahibkarlığın inkişafı Azərbaycanda bazar iqtisadiyyatı atributlarının bərqərar olması vergi siyasəti qarşısında yeni tələblər qoyur. Bu isə bir tərəfdən səmərəli vergi mexanizmlərinin formalaşmasını, digər tərəfdən də vergi ödəyicilərinə göstərilən xidmətlərin yeni inkişaf səviyyəsinə çatdırılmasını tələb edir. Belə bir şəraitdə Azərbaycanın vergi xidməti qarşısında qlobal çağırışlara cavab verə biləcək vergi sisteminin formalaşması zəruridir. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında vergi siyasətinin təkmilləşdirilməsi sahəsində də mühüm vəzifələr qarşıya qoyulmuşdur. Forumda müzakirə olunacaq məsələlər gələcəkdə qarşıya qoyulan məqsədlərə çatmaqda önəmli və əhəmiyyətli rol oynayacaqdır».

***Rauf Zeyni, Milli QHT Forumunun Prezidenti:*** «Azərbaycanda uğurlu vergi siyasətinin həyata keçirilməsi ölkədə biznes mühitinin təkmilləşdirilməsinə yardımçı olmuşdur. Bu mühitin daha da yaxşılaşdırılması üçün belə müzakirələrin keçirilməsinə böyük ehtiyac duyulur. Bu, həm də vətəndaş cəmiyyəti ilə dövlət qurumları arasında əlaqələrin inkişaf etdirilməsi baxımından da əhəmiyyətli tədbirdir. Mən forumda Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı üçün dövlət qurumları ilə QHT-lərin əməkdaşlığı barədə çıxış etməyi planlaşdırıram. Ümid edirəm ki, Vergilər Nazirliyi qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti institutları ilə qurduğu sıx əməkdaşlıq münasibətlərini bundan sonra da davam etdirəcək».

***Sabit Bağırov, İqtisadi və Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri:*** «Dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, beynəlxalq maliyyə institutlarının, xarici təşkilat nümayəndələrinin iştirakı ilə keçiriləcək tədbir hamımız üçün faydalı olacaq. Burada fikir mübadiləsi aparılacaq, əldə olunan nailiyyətlər, yeni istiqamətlər müzakirə ediləcək, problemlər barədə danışılacaq. Bu baxımdan, keçiriləcək forumun ölkəmizin biznes mühitinə böyük təsirinin olacağını düşünürəm».

***Nuran Kərimov, «Deloitte & Touche» agentliyinin partnyoru:*** «Vergilər Nazirliyinin peşə bayramı ərəfəsində belə tədbirlərin keçirilməsi çox gərəklidir. Forumda QHT-lərin və məsləhətçi şirkətlərin əməkdaşlıq şəraitində bir araya gələrək ölkədə vergi inzibatçılığının inkişaf etdirilməsi mövzusunda fikir mübadiləsi aparmaları yüksək qiymətləndirilməlidir. Hesab edirəm ki, dövlət və qeyri-dövlət təşkilatları arasında müzakirələr nə qədər çox keçirilsə, daha çox nailiyyətlər əldə olunar. Ümid edirəm ki, forumun keçirilməsi ölkədə biznes mühitinin yaxşılaşdırılmasına, vergi sisteminin inkişafına böyük təkan verəcək».

**S.MUSTAFAYEV, A.NƏBİYEVA**

# Azərbaycanın vergi sistemi 2012-ci ildə...

## Vergi qanunvericiliyi təkmilləşdirilir

***Vergilər Nazirliyi (VN) ölkəmizdə həyata keçirilən vergi siyasətinə uyğun olaraq 2012-ci ildə səmərəli islahatları davam etdirib, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlər görüb, vergi daxilolmalarının proqnozda nəzərdə tutulduğundan artıq həcmdə ödənilməsini təmin edib. Ötən il vergi siyasəti sahəsində ən mühüm hadisələrdən biri «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunun qüvvəyə minməsi olub.***

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da vergi sahəsində görülmüş işlərə, mövcud problemlərə və onların həlli yollarına dair təkliflər nəzərə alınıb və konsepsiyaya passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçid və vergi dərəcələrinin optimallaşdırılması ilə bağlı müddəalar daxil edilib. «Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları»nın Nazirlər Kabineti tərəfindən təsdiq edilməsi də 2012-ci ilin ciddi hadisələrindən biri kimi yadda qaldı.

İş yerlərinin rəsmiləşdirilməsinə vergi nəzarətinin artırılması, bu sahədə qeydiyyatın düzgün aparılması, real orta aylıq əmək haqlarına uyğunluğun nəzarətdə saxlanılması, eləcə də dövlət satınalmalarında iştirak edən vergi ödəyicilərinə nəzarətin gücləndirilməsi ilə bağlı sistemli tədbirləri xüsusu qeyd etmək olar. «Əmək münasibətləri sahəsində vergi nəzarətinin gücləndirilməsi barədə» Konsepsiyanın təsdiq edilməsi, Vergilər Nazirliyində müvafiq qərargahın yaradılması əmək münasibətlərinə çevik və hərtərəfli vergi nəzarətinin həyata keçirilməsini təmin edir.

## Vergi orqanlarına daxil olan şikayətlərin ümumi sayı əvvəlki ilə nisbətən 16,2% azalmışdır

2012-ci il ərzində dövlət vergi orqanlarına cəmi 52590, o cümlədən nazirliyin aparatına 4146 müraciət daxil olmuşdur. Bu müraciətlərdən 51437-si ərizə, 1088-i şikayət, 65-i təklif xarakterli olmuşdur. Müraciətlərin 22085-i müxtəlif arayışların alınması, 10831-i kameral vergi yoxlamaları, 6786-sı vergi borcları, 1226-sı səyyar vergi yoxlamaları, 10509-u isə digər məsələlərlə bağlı olmuşdur.

Daxil olan şikayətlərin ümumi sayı əvvəlki ilə nisbətən 210 və ya 16,2% azalmışdır. Onlardan 304-ü eyni, 100-ü təkrar müraciətlərdir. Faktiki şikayətlər cəmi 684 məsələ ilə bağlı olmuşdur ki, bu da ümumi müraciətlərin cəmi 1,3%-ni təşkil edir. Müraciətlərin 77,9%-i müsbət həll olunmuş, 12%-i barədə müvafiq izahatlar verilmiş, 5,5%-i əsassız sayılmışdır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından nazirliyin aparatına 362 müraciət, o cümlədən 220 ərizə, 142 şikayət göndərilmişdir. Daxil olmuş şikayətlərin 75-i eyni, 8-i təkrar olduğundan faktiki şikayətlərin sayı cəmi 59-dur. 2011-ci illə müqayisədə Prezident Administrasiyasından göndərilmiş müraciətlərin sayı 206 vahid, faktiki şikayətlərin sayı isə 21 vahid azalmışdır.

Vergi Apelyasiya Şurasında baxılmış şikayətlərdən 50%-i üzrə ilk iclasda vergi ödəyicilərinin xeyrinə qərar çıxarılmışdır. Vətəndaş müraciətlərinə baxılması ilə yanaşı, onların vergi orqanlarında şəxsən qəbul edilməsi, qaldırdıqları problemlərin araşdırılaraq müvafiq tədbirlərin görülməsi də daim diqqət mərkəzində saxlanılır. Hesabat dövründə vergi orqanlarında 26506, o cümlədən nazirliyin aparatında 676, tabeli qurumlarda isə 25830 vətəndaş qəbul olunmuşdur.

## Operativ nəzarət tədbirləri

2012-ci il ərzində vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 39125 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. Onlardan 19279-nun (49,3%) nağd hesablaşmaların aparılması qaydalarını pozduğu, 4013-nün (10,6%) qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul etdiyi və valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla alıb-satdığı və ya dəyişdirdiyi, 3536-nın (9,04%) vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 5803-nün (14,4%) xüsusi razılıq (lisenziya) almadan sahibkarlıqla məşğul olduğu müəyyən edilmişdir. Hesabat dövründə 4133 vergi ödəyicisi tərəfindən 7027 fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 1670 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 691 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 10448 ədəd mal olduğu aşkarlanmışdır. Aşkar olunmuş qanun pozuntuları ilə bağlı qanunamüvafiq tədbirlər görülmüşdür.

***2012-ci ildə dövlət büdcəsinə qeyri-neft-qaz sektoru üzrə 3 mlrd. 286 mln. 509,7 min manat vəsait daxil olmuşdur ki, bu da 2011-ci il müvafiq dövrünə nisbətən 14,5% çoxdur***

## 2012-ci ildə aparılmış səyyar vergi yoxlamalarının əksəriyyətində qanun pozuntusu halları aşkar edilmişdir

2012-ci ildə Vergilər Nazirliyi tərəfindən ümumilikdə 11150 vergi ödəyicisində, o cümlədən 7075 hüquqi və 4075 fiziki şəxsdə səyyar vergi yoxlaması başa çatdırılmışdır ki, bu da 2011-ci illə müqayisədə 15,9% azdır. 2011-ci ildə faktiki fəaliyyət göstərən vergi ödəyicilərinin 6,2%-i səyyar vergi yoxlaması ilə əhatə edilmişdisə, 2012-ci ildə bu göstərici 4,8% olmuşdur. Səyyar vergi yoxlamalarının 74,1%-i növbəti yoxlamalar, qalanı isə növbədənkənar səyyar vergi yoxlamaları olmuş və bu yoxlamaların əksəriyyətində vergi qanunvericiliyinin pozulması halları aşkar edilmişdir.

Hesabat dövründə başa çatdırılmış yoxlamalar üzrə büdcəyə ümumilikdə 612,9 milyon manat əlavə vəsait hesablanmışdır ki, bunun da 51,2%-ni əlavə hesablanmış vergi məbləği, 48,8%-ni isə vergilərin azaldılmasına və digər hüquq pozuntularına görə tətbiq edilmiş maliyyə sanksiyası və faizlər təşkil etmişdir. 2011-ci illə müqayisədə 2012-ci ildə əlavə hesablanmış vergi məbləği 24,5 %, maliyyə sanksiyası və faizlər üzrə məbləğlər isə 10,1% artmışdır. Ümumilikdə 2011-ci illə müqayisədə 2012-ci ildə başa çatdırılmış səyyar vergi yoxlamalarının sayının azalmasına baxmayaraq, hesablanmış əlavə vəsaitin məbləği 17% artmışdır. Büdcəyə hesablanmış əlavə vəsaitin 56,5%-i növbəti yoxlamaların, 43,5%-i isə növbədənkənar yoxlamaların payına düşür.

Hesabat dövründə səyyar vergi yoxlamaları üzrə orta hesabla 1 yoxlamaya düşən hesablanmış əlavə vəsaitin məbləği 2011-ci illə müqayisədə 39,2% artaraq 55 min manat təşkil etmişdir.

Yoxlamalar zamanı əlavə hesablanmış məbləğin 40,7%-i ödəmə mənbəyində tutulan verginin (muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan gəlir vergisi istisna olmaqla), 27,9%-i əlavə dəyər vergisinin, 9,5%-i mənfəət vergisinin, 4,2%-i muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin, 17,7%-i isə digər vergilərin payına düşmüşdür.

## 2012-ci ildə 180 mindən çox əmək müqaviləsinin bağlanılması təmin edilmişdir

2012-ci ildə Vergilər Nazirliyi qeyri-leqal məşğulluğun leqallaşdırılması, iş yerlərinin düzgün rəsmiləşdirilməsi, muzdlu işlə əlaqədar əmək haqqından tutulan gəlir vergisi üzrə vergitutma bazasının genişləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirmişdir.

2012-ci ildə əmək münasibətlərinə vergi nəzarətinin təşkili istiqamətində geniş təbliğat-təşviqat və maarifləndirmə işləri aparılmışdır. Bu məqsədlə reklam lövhələri quraşdırılmış, nəqliyyat vasitələrində, o cümlədən avtobuslarda, habelə taksilərdə əmək müqavilələrinin bağlanılmasının məcburiliyi barədə reklamlar yerləşdirilmişdir. Təbliğat prosesində mərkəzi televiziya kanallarının imkanlarından geniş istifadə edilmiş, əmək qanunvericiliyinə dair müxtəlif rolik və reklam çarxları yayımlanmış, KİV-də elanlar və məqalələr dərc edilmişdir. Nazirliyin rəhbər vəzifəli şəxslərinin kütləvi informasiya vasitələrində çıxışları təşkil edilmiş, əmək müqavilələrinin bağlanması zərurəti, bu sahədə həyata keçirilən vergi nəzarəti tədbirləri barədə KİV-də geniş təbliğat kampaniyası aparılmışdır.

Bununla yanaşı, vergi orqanları tərəfindən respublikanın bütün regionlarında vergi ödəyiciləri ilə mütəmadi görüşlər keçirilmiş, əmək münasibətlərinə vergi nəzarəti sahəsində qanunvericiliyin tələbləri və məsuliyyət tədbirləri barədə geniş məlumatlandırma, təbliğat işləri aparılmış, yoxlamalar və operativ nəzarət tədbirləri keçirilmişdir.

Əmək münasibətlərinə sistemli nəzarətin təşkili məqsədilə müasir informasiya və innovativ texnologiyaların verdiyi imkanlardan istifadə etməklə nazirlik tərəfindən işçilərin şəxsiyyətini təsdiq edən sənəd məlumatları, onların işə götürülmə və işdən azadedilmə tarixlərinin əks olunduğu vahid məlumat bazasının yaradılmasına başlanılmışdır. Vergi ödəyiciləri onlara verilmiş parol və şifrə vasitəsi ilə Vergilər Nazirliyinin internet səhifəsinə daxil olaraq işçilər haqqında məlumatı bu bazaya daxil edə biləcəklər.

Həyata keçirilmiş tədbirlər nəticəsində 11 yanvar 2013-cü il tarixə vergi orqanları tərəfindən 55 min 94 işəgötürən vergi ödəyicisi ilə 180 min 96 işçi arasında bağlanmış əmək müqavilələri barədə məlumatın yeni yaradılmış məlumat bazasına daxil olunması təmin edilmişdir. Hazırda vergi orqanları fərdi əmək fəaliyyəti ilə məşğul olan, lakin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən və bununla da vergiləri dövlət büdcəsinə ödəməkdən yayınan şəxslərin müəyyən edilməsi istiqamətində işləri davam etdirirlər.

## Vergi borclarının alınmasında çevik mexanizmlər tətbiq edilir

Vergi proqnozlarının icrası və vergi daxilolmalarının dövlət büdcəsinə ödənilməsi istiqamətində görülmüş tədbirlər nəticəsində ötən il vergi borclarının məbləğində azalma müşahidə edilmişdir. 195.311 borclu vergi ödəyicisi üzrə aparılmış qanunamüvafiq tədbirlər nəticəsində 186.922 borclu vergi ödəyicisinin (95,7%), ümumilikdə isə - 2012-ci ilin əvvəlinə olan 9.471 borclu vergi ödəyiciləri də nəzərə alınmaqla - cəmi 196.393 (100,5%) borclu vergi ödəyicilərinin borcları tamamilə ləğv edilmişdir.

Bununla yanaşı, dövr ərzində dövlət büdcəsinə daxilolmaların 31,7%-ni borclu vergi ödəyiciləri üzrə vaxtından gec ödənişlər və məcburi alınma tədbirləri nəticəsində ödənişlər təşkil etmişdir. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə könüllü əməletmə səviyyəsinin 67,0%-dən 68,3%-ə çatdırılması deməkdir.

2012-ci il ərzində vergi orqanları tərəfindən borclu vergi ödəyicilərinin dövlət büdcəsinə yaranmış borclarının ödənilməsinin təmin edilməsi məqsədilə əmlakın siyahıya alınması barədə 51030 (96,4 milyon manat məbləğində) qərar açılmışdır. Dövr ərzində açılmış qərarlar da daxil olmaqla, ümumilikdə 247,6 milyon manat məbləğində 48575 qərar (95,2%) borclar ləğv edildiyinə görə bağlanmışdır.

Dövr ərzində hüquqi şəxslərdə təsisçi (payçı) kimi çıxış etmələri müəyyən edilmiş 879 borclu fiziki şəxslə aparılan tədbirlər nəticəsində onların 543,5 min manat məbləğində borclarının tam şəkildə dövlət büdcəsinə alınması təmin edilmişdir. Ötən il ərzində vergi orqanları tərəfindən əmlakı olmayan borclu vergi ödəyiciləri üzrə ölkədən getmə hüququnun məhdudlaşdırılması ilə əlaqədar olaraq, aidiyyəti üzrə edilmiş müraciətlər nəticəsində 53 vergi ödəyicisinin ölkədən getmə hüququ məhdudlaşdırılmışdır.

Ümumilikdə, vergi orqanları tərəfindən görülmüş tədbirlər nəticəsində 2013-cü il 1 yanvar tarixinə borc məbləği 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə 16,2%, 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə isə 32,7 % azalmışdır.

**2012-ci ildə vergi borclarının azalması müşahidə olunub**




## Vergilərin könüllü ödənilməsi səviyyəsinin yüksəldilməsi vergi ödəyicilərinə xidmətin əsas hədəfidir

2012-ci ildə vergi ödəyicilərinə göstərilən xidmətlərin spektrinin genişləndirilməsi, xidmət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar bir sıra layihələr həyata keçirilmişdir. Qusar, Saatlı, Biləsuvar, Qax, Bərdə, Tərtər, Neftçala, Astara, Yardımlı və Lerik rayonlarında daha 10 xidmət mərkəzi vergi ödəyicilərinin istifadəsinə verilməklə onların ümumi sayı 40-a çatdırılmışdır. Ötən il 2011-ci illə müqayisədə mərkəzlərə müraciət etmiş vergi ödəyicilərinin sayı 89,3%, göstərilmiş xidmətlərin sayı isə 73,9% artmışdır.

2012-ci il ərzində Vergilər Nazirliyinin «195» Telefon-məlumat xidmətində vergi ödəyiciləri və ümumilikdə əhalidən daxil olmuş 273131 müraciət cavablandırılmış, vergi ödəyicilərinə 596866 mesaj göndərilməklə onların məlumatlandırılması təmin edilmişdir. Telefon-məlumat xidmətinə daxil olmuş müraciətlərin 138910-u canlı rejimdə müfəttiş operatorlar, 134221-i isə avtomatik rejimdə elektron operator tərəfindən cavablandırılmışdır. Müfəttiş-operatorlar tərəfindən cavablandırılmış suallar arasında elektron xidmətlər (25,3%), vergi növləri (13,5%), qeydiyyat (14,3%) barədə suallar, avtomatik rejimdə qəbul edilmiş müraciətlər arasında isə vergi növləri (72%) və dövlət büdcəsinə olan vergi borcları (26,6%) barədə müraciətlər üstünlük təşkil etmişdir.

2012-ci ildə Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin (www.taxes.gov.az) tərtibatı da dəyişdirilmiş və yeni dizaynda istifadəçilərə təqdim edilmişdir. Ötən il 2011-ci illə müqayisədə Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə daxil olan şəxslərin sayı 11,3% artaraq 3.038.779 olmuşdur. Qeyd olunan dövr ərzində internet səhifəsinin «Sual-cavab» bölməsinə daxil olmuş 2298 müraciətin 99,3%-i qısa müddət (1-10 gün) ərzində cavablandırılmışdır.

Vergi ödəyicilərinin məlumat əldəetmə imkanlarının genişləndirilməsi, bu sahədə funksional idarəetmənin yeni formalarının tətbiqi məqsədilə məlumat köşklərinin quraşdırılmasına başlanmışdır. Sensor monitorlu elektron aparatlar nazirliyin məlumat resurslarına çıxışı təmin etmək üçün nəzərdə tutulub. Artıq Bakı Metropoliteninin səkkiz stansiyasında 15, Heydər Əliyev Beynəlxalq Hava Limanında isə 4 info-köşk quraşdırılmışdır.

Vergi öhdəliklərinə könüllü əməl edilməsi səviyyəsini yüksəltmək və vergi ödəyicilərinin vaxtına qənaət etmək məqsədilə ötən il «Azercell» abonentlərinin istifadə edə biləcəyi «İkitərəfli SMS xidməti» yaradılmışdır. Yeni xidmət vergi ödəyicilərindən daxil olmuş standart SMS-lərin avtomatik olaraq SMS vasitəsilə cavablandırılmasını nəzərdə tutur.

## E-xidmət istifadəçilərinin sayı artıb

2012-ci il ərzində müasir informasiya və kommunikasiya texnologiyalarının üstünlüklərindən istifadə etməklə vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin keyfiyyəti daha da yüksəldilmişdir. Elektron xidmətlərin bir hissəsi olan ƏDV depozit hesabına 2012-ci il ərzində vergi ödəyiciləri tərəfindən 1 milyondan artıq köçürmə əməliyyatı nəticəsində 2 milyard 429,3 mln. manat vəsait daxil olmuşdur. İnternet Vergi İdarəsi vasitəsilə 1123185 bəyannamə elektron formada təqdim edilmişdir ki, bu da ümumi təqdim edilmiş bəyannamələrin 89,9%-ni təşkil edir.

Ötən il üzrə qeydiyyata alınmış sahibkarlıq subyektlərinin sayı 71865, bunlardan kommersiya hüquqi şəxslərin sayı 4908, fərdi sahibkarların sayı isə 66957 olmuşdur. 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin sayı 457, fərdi sahibkarların sayı isə 4032 vahid artmışdır. Ötən il ərzində vergi ödəyicilərinə «bir pəncərə» vasitəsilə 36886 ədəd nəzarət kitabçaları təqdim edilmişdir.

2011 və 2012-ci illərdə ölkədə fərdi sahibkarların və kommersiya hüquqi şəxslərin elektron qeydiyyatına başlanmışdır. 2012-ci ildə 45018 fərdi sahibkar, 859 hüquqi şəxs elektron qaydada qeydiyyatdan keçmişdir.

2012-ci ildə banklar və digər kredit təşkilatları ilə vergi orqanları arasında inteqrasiyanın genişləndirilməsi işləri davam etdirilmişdir. Respublikamızda fəaliyyət göstərən kommersiya banklarından 37-nin Vergilər Nazirliyi ilə elektron mübadiləyə qoşulması təmin olunmuşdur. Hazırda «Naxçıvanbank» ASC ilə elektron sənəd mübadiləsi istiqamətində test işləri aparılır. Vergi və rüsumların internet vasitəsilə ödənilməsi üçün elektron ödəniş sisteminin tətbiqinə başlanılmış və hesabat ilində 85,6 mln. manatdan artıq vəsait dövlət büdcəsinə elektron qaydada ödənilmişdir. 2012-ci il ərzində 26916 POS-terminal aparatına Vergilər Nazirliyi tərəfindən qeydiyyat nömrələri verilməklə qeydiyyata alınmış POS-terminalların ümumi sayı 33694 təşkil etmişdir.

2012-ci ilin sonunda qeydiyyatda olan vergi ödəyicilərinin sayı 481710 təşkil etmişdir: bunlardan 75082-si hüquqi şəxslər, 406628-i fiziki şəxslər, 19466-sı isə ƏDV ödəyiciləridir. 2012-ci il ərzində 72263 vergi ödəyicisi qeydiyyata alınmışdır.

**Davamı 4-cü səhifədə**



## Vergi sistemi ölkənin sosialyönümlü siyasəti ilə uzlaşır

*Asəf NADİROV, akademik:*

Hər bir dövlətin davamlı və sabit inkişafının vacib şərtlərindən biri onun mükəmməl və çevik vergi sisteminə malik olmasıdır. Ötən illərə nəzər saldıqda görərik ki, respublikanın vergi sistemində qısa müddətdə genişmiqyaslı islahatlar aparılıb, bu sahənin qanunvericiliyi ilbəil təkmilləşdirilib. Vergi sisteminin ən mütərəqqi cəhəti ölkənin sosialyönümlü siyasəti ilə uzlaşması, cəmiyyətdə vergi ödəyən həlledici çoxluğun maraqlarına cavab verməsidir.

Qlobal böhranla bağlı olaraq, Avropa ölkələrinin bir çoxunda vergilər davamlı şəkildə qaldırılır, hətta bəzi məşhur adamlar bu səbəbdən vətəndaşlıqdan imtina edirlər. Azərbaycanda isə əksinə, vergi mühiti ildən-ilə liberallaşır, əsasən vergi ödəyicilərinin maraqlarına cavab verən optimallaşdırma siyasəti yürüdülür. Eyni zamanda, vergitutmada əhalinin aztəminatlı təbəqəsinin mənafeyi nəzərə alınır.

2012-ci ilin dekabr ayında Vergi Məcəlləsinə edilmiş mütərəqqi əlavə və dəyişikliklər nəinki biznes subyektlərinin, eləcə də hər bir vətəndaşın mənafeyinə xidmət edir. Ümumilikdə, Vergilər Nazirliyi fəaliyyətini müasir dövrün tələblərinə uyğun quran, ölkənin iqtisadi inkişafında mühüm rolu olan dövlət orqanıdır. Dövlət büdcəsinin formalaşmasında nazirliyin üzərinə düşən məsuliyyət ildən-ilə artır.

Vergi işçilərinin peşə bayramı günü münasibətilə nazirliyin hər bir əməkdaşını ürəkdən təbrik edir, onlara çətin və məsuliyyətli işlərində uğurlar arzulayıram.

## Vergi işçilərinin uğurlarına sevinirik

*Vahid NOVRUZOV, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor*



Dünya maliyyə böhranı dövründə belə, Azərbaycanın iqtisadi qüdrətini əsaslı şəkildə möhkəmləndirməsində birmənalı olaraq dövlətimizin iqtisadi suverenliyinin əsas dayaqlarından olan çevik və səmərəli vergi sisteminin böyük payı vardır.

Vergilər Nazirliyi müstəqil Azərbaycan Respublikasının çox mühüm icra orqanı, sürətli iqtisadi inkişafı təmin edən yeni iqtisadi strategiyanın uğurla həyata keçirilməsinin vacib strukturudur. Son illərdə həm nazirliyin aparatında, həm də yerli vergi orqanlarında aparılan köklü islahatlar daha səmərəli və funksional əsasda fəaliyyət göstərən, beynəlxalq standartlara uyğunlaşdırılmış idarəetmə sisteminin yaranmasına gətirib çıxarmışdır. Bunun nəticəsi olaraq, vergi ödəyicilərinin hüquqlarının qorunması, vergidən yayınma hallarına qarşı mübarizənin gücləndirilməsi, vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması istiqamətində çox mühüm uğurlar əldə edilmişdir. Bu mənada, Vergilər Nazirliyində toplanmış təcrübə çox qiymətlidir, ölkənin digər iqtisadi-maliyyə qurumları, o cümlədən müstəqil audit üçün də faydalıdır.

Əminəm ki, vergi işçiləri qarşıdakı illərdə uğurlarını daha da artıracaq, müstəqil Azərbaycanın inkişaf tarixinə yeni-yeni səhifələr yazacaqlar.



## Vergilər Nazirliyi fəaliyyətini müasir üsul və vasitələr əsasında qurur

*İsa ALIYEV, AMEA İqtisadiyyat İnstitutunun direktoru, iqtisad elmləri doktoru*

Ölkə rəhbərliyinin siyasi iradəsi ilə Vergilər Nazirliyi son illərdə Azərbaycanda biznes mühitinin inkişafı və liberallaşdırılması, vergi ödəyiciləri üçün daha normal fəaliyyət imkanlarının yaradılması istiqamətində sistemli iş aparır. Bunun nəticəsidir ki, özünəməxsus inkişaf modeli ilə tanınan Azərbaycanın vergi sistemi regionda mütərəqqi model kimi qəbul olunur. Bir sıra MDB ölkələri də respublikamızın vergi sistemində tətbiq olunan yenilikləri böyük maraqla izləyir, onları öz ölkələrində tətbiq etmək üçün bizim köməyimizə ehtiyac duyurlar. Bu baxımdan, xüsusən də vergilərin elektron formada ödənilməsi, fiziki və hüquqi şəxslərin dövlət qeydiyyatının real vaxt rejimində - bir neçə dəqiqə ərzində reallaşmasını qeyd edə bilərəm.

Mütərəqqi haldır ki, nazirlik tətbiq olunan yeniliklərlə kifayətlənmir, daim axtarışlar edir, eyni zamanda, elm adamlarının da təkliflərini nəzərə alır. Əminəm ki, Vergilər Nazirliyi fəaliyyətini bundan sonra da müasir üsul və vasitələr əsasında quraraq ölkəmizin davamlı inkişafına öz dəyərli töhfəsini verəcəkdir.



## İqtisadiyyatın ahəngdar inkişafının ləyaqətli təmsilçiləri

*Məmməd MUSAYEV, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti*

Azərbaycanda sahibkarlıq fəaliyyətinin davamlı inkişafı dövlətin iqtisadi siyasətinin üstün istiqamətlərindəndir. İqtisadiyyatın ahəngdar inkişafının təmin edilməsində dövlət idarəçiliyinin çox mühüm tərkib hissəsi olan vergi sistemi də böyük rol oynayır. Biznesə başlama prosedurlarının sadələşdirilməsi və sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə» prinsipi üzrə vahid dövlət qeydiyyatının həyata keçirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması və vergi ödəyicilərinin mənafeyinin qorunması ilə bağlı atılan addımlar ölkəmizdə sahibkarlığın inkişafinda mühüm rol oynamışdır. Fiziki və hüquqi şəxslərin onlayn rejimində qeydiyyata alınması və digər məqsədyönlü tədbirlər biznes mühitinin daha da sağlamlaşdırılmasına, sahibkarlığın inkişafına müsbət təsir göstərir.

Ölkəmizdə beynəlxalq standartlara uyğun müasir vergi sisteminin tətbiqinin real aparıcısı, iqtisadiyyatın ahəngdar inkişafının təmin olunmasında dövlət idarəçiliyini ləyaqətlə təmsil edən vergi xidməti əməkdaşlarını ürəkdən təbrik edir, onlara möhkəm cansağlığı, şərəfli işlərində uğurlar arzulayıram.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

### Normativ hüquqi aktların hazırlanması

*Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması, qəbul edilməsi və qüvvəyə minməsi necə tənzimlənir?*

Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinin 1-ci hissəsinin 6-cı bəndinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları qanunvericilik sisteminə daxildir.

«Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 1.0.1-ci maddəsinə əsasən, normativ hüquqi akt - tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir.

Konstitusiya Qanununun 20-ci maddəsində qeyd edilmişdir ki, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları Azərbaycan Respublikası Prezidentinin aktları ilə nəzərdə tutulmuş hallarda və hədlərdə, yalnız Azərbaycan Respublikası Prezidentinin aktları ilə onların səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qəbul edilə bilər.

Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları qərarlar formasında qəbul edilir. Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən qəbul edilən təlimatlar, əsasnamələr, nizamnamələr və qaydalar həmin orqanların qərarları ilə təsdiq edilir. Normativ hüquqi akt mərkəzi icra hakimiyyəti orqanları tərəfindən qəbul olunduqda bu normativ hüquqi aktın istinad etdiyi Azərbaycan Respublikası Prezidentinin aktı göstərilməli və həmin aktın icrası məqsədi ilə qəbul olunduğu qeyd edilməlidir.

Konstitusiya Qanununun 45.3-cü maddəsinə əsasən, normativ hüquqi aktın layihəsi müvafiq dövlət orqanının hüquq xidmətinin mütləq iştirakı ilə hazırlanır. Konstitusiya Qanununun 46.1-ci maddəsinə müvafiq olaraq, normativ hüquqi aktın layihəsinin razılaşdırılması Azərbaycan Respublikasının qanunvericiliyi ilə məcburi olduqda, habelə normativ hüquqi aktda Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada digər dövlət orqanları ilə bağlı normativ göstərişlər və (və ya) tapşırıqlar olduqda, həmin layihə normayaratma orqanına təqdim edilməzdən əvvəl maraqlı dövlət orqanları ilə razılaşdırılmalıdır.

Konstitusiya Qanununun 46.7-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarının layihəsi mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdırılmalıdır, mərkəzi icra hakimiyyəti orqanının normativ hüquqi aktının layihəsi isə əlaqədar mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdırılmalıdır. Konstitusiya Qanununun 49.1-ci maddəsində qeyd edilmişdir ki, normativ hüquqi aktın layihəsi və Azərbaycan Respublikasının Prezidentinə imzalanmaq üçün təqdim edilən qanun məcburi hüquqi ekspertizadan keçirilməlidir.

Konstitusiya Qanununun 49.2.4-cü maddəsinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələri üzrə məcburi hüquqi ekspertiza həmin orqanların hüquq xidmətləri tərəfindən keçirilir.

Konstitusiya Qanununun 78-ci maddəsinə əsasən, hüquqi aktlar onları qəbul etmiş dövlət orqanı tərəfindən Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmək məqsədi ilə həmin aktların qəbul edildiyi gündən üç gün keçənədək göndərilir. Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədi ilə təqdim edilən mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına və normativ xarakterli aktlara müvafiq hüquqi ekspertizanın rəyi əlavə olunur.

Konstitusiya Qanununun 85.1-ci maddəsinə əsasən qanunlar, fərmanlar və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları həmin aktlarda qüvvəyə minmənin daha gec müddəti nəzərdə tutulmadıqda, onların rəsmi dərc edildiyi gündən qüvvəyə minir. Konstitusiya Qanununun 85.1-ci maddəsində göstərilən aktlar istisna olmaqla, digər normativ hüquqi aktlar, həmin aktlarda qüvvəyə minmənin daha gec müddəti nəzərdə tutulmadıqda Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydaları, həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyul tarixli 483 nömrəli fərmanı ilə təsdiq edilmiş «İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə» ilə, hüquqi aktların dövlət reyestrinə daxil edilməsi isə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli fərmanı ilə təsdiq edilmiş «Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə» ilə tənzimlənir.

## Azərbaycanın vergi sistemi 2012-ci ildə...

**Əvvəli 3-cü səhifədə**

### Beynəlxalq təcrübənin öyrənilməsi diqqət mərkəzindədir

2012-ci ildə Vergilər Nazirliyi tərəfindən beynəlxalq təşkilatlarla əməkdaşlıq, ikitərəfli və çoxtərəfli müqavilə-hüquq bazasının genişləndirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi üzrə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

İl ərzində Avropadaxili Vergi Administrasiyaları Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Beynəlxalq Antikorrupsiya Akademiyası, İslam Ölkələrinin Vergi Administrasiyaları Assosiasiyası, BMT-nin vergi məsələləri üzrə ekspertlər komissiyası və Avropa Kommersiya Qeydiyyatçıları Forumu, ECO ilə geniş miqyaslı məlumat və təcrübə mübadiləsi aparılmışdır. Azərbaycan Respublikası 2012-ci ildə Korporativ Qeydiyyatçılar Forumunun üzvlüyünə qəbul edilmişdir.

Ötən il nazirliyin əməkdaşları tərəfdaş dövlətlərin və beynəlxalq təşkilatların təşkil etdiyi bir sıra tədbirlərdə iştirak etmiş, eləcə də nazirlik Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan ölkələrin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının iclaslarına və Beynəlxalq Antikorrupsiya Akademiyası ilə korrupsiyaya qarşı mübarizə mövzusunda konfransa ev sahibliyi etmişdir.

Ötən il Qırğızıstan ilə vergi qanunvericiliyinə riayət edilməsi üzrə əməkdaşlıq və qarşılıqlı yardım sazişi, Argentina ilə vergi məlumatlarının mübadiləsi sazişi, Xorvatiya, Bosniya və Herseqovina ilə gəlirə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında sazişlər imzalanmışdır. Bununla da, Azərbaycanın digər ölkələrlə gəlirə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında imzaladığı sazişlərin sayı 43-ə çatmışdır. Bundan əlavə, Slovakiya, Monteneqro, Albaniya, Portuqaliya və Malta ilə ikiqat vergitutmanın aradan qaldırılması sazişi üzrə danışıqların növbəti mərhələləri keçirilmiş, Makedoniya ilə sazişin imzalanması üçün bütün prosedurlar başa çatdırılmışdır.

### Qanunu pozanlara qarşı sərt tədbirlər görülür

2012-ci il ərzində 417 cinayət işi başlanmışdır. İcraatda olmuş 935 cinayət işindən 380-nin istintaqı tamamlanmış, 105-i digər işlərlə bir icraatda birləşdirilmiş, 310-nun istintaqı dayandırılmış, 6-sı istintaq aidiyyəti üzrə digər hüquq-mühafizə orqanına göndərilmiş, 134-ü isə 2013-cü ilə qalmışdır.

İstintaqı tamamlanmış cinayət işlərindən cəmi 87 iş baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmiş, 293 işin icraatına xitam verilmişdir. 2012-ci il ərzində cinayət işləri və materiallar üzrə aparılan araşdırmalar zamanı dövlət büdcəsinə ödənilməsi təmin olunmuş vəsaitin məbləği 15 mln. 144,5 min manat təşkil etmişdir.

Hesabat dövründə əvvəllər dayandırılmış 290 cinayət işi üzrə icraat təzələnmişdir.

### İnsan resurslarından səmərəli istifadə olunur

Ötən il insan resurslarından istifadənin səmərəliliyinin artırılması, işçilərin və idarələrin fəaliyyətinin planlaşdırılması və qiymətləndirilməsi məqsədilə silsilə tədbirlər həyata keçirilmişdir. 2012-ci ildə Vergilər Nazirliyinə işə qəbulla bağlı imtahanlar keçirilmişdir.

2012-ci ildə vergi orqanları əməkdaşlarına xüsusi rütbələrin verilməsi ilə əlaqədar 489 əməkdaşa ilkin və növbəti xüsusi rütbələr verilmişdir. Ötən ildə Vergilər Nazirliyinin Tədris Mərkəzində kurslar üzrə tədris-mövzu planları və tədris proqramları mövcud normativ-hüquqi aktlara edilən əlavə və dəyişikliklər, həmçinin dinləyicilərin tədris tələbatları nəzərə alınmaqla yenidən hazırlanmış və Tədris Mərkəzinin 2013-cü il üçün Tədris Kataloqu və İnkişaf Konsepsiyası hazırlanmışdır.

**Materialı hazırladılar: Elbrus CƏFƏRLİ, Arzu İBRAHİMOVA**

***Ötən il respublika üzrə 72 263 vergi ödəyicisi qeydiyyata alınmışdır. 2011-ci ilin iyul ayının 1-dən cari ilin yanvar ayının 1-dək 55 086 fiziki şəxs elektron qaydada qeydiyyatdan keçmişdir. 1 yanvar 2013-cü il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 481710 olmuşdur***

# Vergi Məcəlləsində olunmuş dəyişiklik və əlavələr təqdim edilmiş güzəştlərin həcmi və kateqoriyaları baxımdan son illərin ən geniş paketidir



*«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli Qanununa əsasən, Vergi Məcəlləsinə əlavə və dəyişikliklər 2013-cü il yanvarın 1-dən qüvvəyə minmişdir. Bu Qanunla müəyyən olunmuş dəyişiklik və əlavələr son bir neçə ildə Vergi Məcəlləsinə edilmiş ən çoxsaylı dəyişikliklər paketidir. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev Vergi Məcəlləsində edilmiş son dəyişiklikləri "AzərTAc" üçün şərh etmişdir. Oxucularımız üçün maraqlı olacağını nəzərə alıb müsahibəni diqqətinizə çatdırırıq.*

**- Akif müəllim, cari ilin əvvəlindən Vergi Məcəlləsinə olunan dəyişikliklər qüvvəyə minmişdir. Bu, son 3 il ərzində Məcəlləyə edilmiş ən böyük dəyişiklik və əlavələrdir. Sonuncu dəyişikliklərin əsas istiqamətləri nədən ibarətdir?**

- Vergi Məcəlləsinə son əlavə və dəyişikliklər həm mahiyyəti, həm tətbiq dairəsi, həm də təqdim olunmuş güzəştlərin həcmi və kateqoriyaları baxımdan son illərin ən geniş dəyişikliklər paketidir. Təkcə onu qeyd etmək istərdim ki, Vergi Məcəlləsinin 63 maddəsinə 131 bənd üzrə 176 əlavə və dəyişiklik edilmişdir və bu, ümumilikdə Məcəllənin müddəalarının 30 faizinə dəyişiklik olunması deməkdir. Son dəyişikliklərin tətbiqi ilə əlaqədar 35-dən yuxarı müxtəlif normativ-hüquqi sənədlərin hazırlanması nəzərdə tutulur. Bu, vergi qanunvericiliyinə edilmiş dəyişikliklərin miqyasının əyani göstəricisidir.

Vergi qanunvericiliyində edilmiş dəyişikliklərin konseptual əsasları bir tərəfdən yeni qlobal iqtisadi çağırışlara əsaslanır, digər tərəfdən də ölkənin ortamüddətli hədəflərinə istiqamətlənmiş məqsədlərə xidmət edir.

Bununla yanaşı, qeyd etməliyəm ki, bu dəyişikliklərlə, həmçinin, vergi qanunvericiliyinin beynəlxalq normalara uyğunlaşdırılması, habelə son bir neçə il ərzində qarşıya çıxan mübahisəli məsələlərin həlli ilə bağlı məsələlər də nəzərə alınmışdır.

Bütövlükdə, biz dəyişiklikləri qruplaşdırsaq, bu, vergi siyasətinin dörd istiqamətini əhatə edir. Bunlar vergi ödəyicilərinin hüquqlarının müdafiəsi, vergi ödəyicilərinin mənafelərinin qorunması, vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsidir.

**- Dəyişikliklərin bir hissəsinin vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi ilə bağlı olduğunu qeyd etdiniz. Bu sahədə yeniliklər nədən ibarətdir?**

- Məcəllədəki yenilikləri bir müsahibə çərçivəsində əhatə etmək çətin olsa da, mən prinsipial dəyişiklikləri qeyd etmək istərdim.

Bunların sırasında vergi orqanları ilə vergi ödəyiciləri arasında əməkdaşlıq münasibətlərinin qurulmasını təmin edən normaların Vergi Məcəlləsinə daxil edilməsi xüsusi yer tutur. Bu, bizim ölkənin təcrübəsində ciddi bir yenilikdir.

Vergi tərəfdaşlığı sazişi - vergi orqanı ilə ödəyici arasında risklərin minimallaşdırılması məqsədi ilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır. Bu, vergi inzibatçılığı prosesində vergi orqanları ilə ödəyici arasında münasibətlərin tamamilə yeni əsaslarda qurulması deməkdir.

Beynəlxalq təcrübədə vergi risklərinin minimallaşdırılmasını dövlətlər vergi orqanları ilə vergi ödəyiciləri arasındakı münasibətlərin qarşılıqlı anlaşma, əməkdaşlıq və hər iki tərəfin könüllü öhdəliklər götürməsi yolu ilə həll etməyə çalışırlar. Bir çox qabaqcıl ölkələrdə, o cümlədən ABŞ-da, Niderlandda, İrlandiyada və s. vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlər tərəfdaşlıq əlaqələrinin qurulması ilə tənzimlənir. Bu təcrübənin səmərəliliyi artıq beynəlxalq təcrübə ilə sübuta yetirilmişdir. Tərəfdaşlıq sazişləri könüllülük əsasında bağlanılır. Bu cür münasibətlərin qurulması, ilk növbədə, qarşılıqlı etimada və məsuliyyətə əsaslanır. Bu da gələcəkdə vergi ödəyicisinin vergidən yayınma risklərini minimallaşdırmaqla onların əlavə maliyyə itkilərinin qarşısını alacaqdır. Eyni zamanda, vergi orqanları ilə vergi ödəyiciləri arasında yaranan mübahisələrin minimuma endirilməsi və onların həllinə çəkilən inzibatçılıq xərclərinin aşağı salınması təmin ediləcəkdir.

Tərəfdaşlıq münasibətlərinin qurulması heç bir halda vergi öhdəliklərinin azaldılmasını və verginin itirilməsini nəzərdə tutmur. Yəni bu, elə bir razılaşmadır ki, vergi ödəyicisi öz üzərinə müəyyən, məsələn, vaxtlı-vaxtında vergi bəyannamələrini təqdim edəcəyinə və hesablanmış vergiləri tam həcmdə ödəyəcəyinə, nağd hesablaşmalar aparılarkən nəzarət-kassa aparatlarından daim istifadə edəcəyinə, müştərilərin plastik kartlarla ödəmələr aparmasına şərait yaradacağına dair öhdəliklər götürür, vergi orqanları da bunun əvəzində vergi nəzarətinin distant formalarından istifadə ediləcəyinə, sahibkarlıq subyektində və onun obyektlərində əlavə yoxlamalar və inzibatçılıqla bağlı təsirlərin olmayacağına razılıq verirlər. Bu, bir növ, «horizontal monitorinqdir». Beləliklə, tərəfdaşlıq sazişləri heç bir halda vergi nəzarətindən imtina edilməsi və ya vergi ödəyicisinin ödəməli olduğu vergilərin həcminin dəyişməsi demək deyildir.

Vergi orqanları ilə vergi ödəyiciləri arasında tərəfdaşlıq münasibətləri qarşılıqlı əməkdaşlıq əsasında qurulmaqla vergilərin tam və vaxtında hesablanıb ödənilməsinin, vergi ödəyicilərinin işgüzar fəallığına və azad iqtisadi fəaliyyətinə xələl gətirmədən minimal resurslarla maksimum səmərəli vergi nəzarətinin təşkilidir. Hesab edirəm ki, vergi tərəfdaşlığı sazişləri bizə vergi ödəyicilərində də maliyyə risklərini azaltmağa, dövlət-biznes münasibətlərində tərəfdaşlıq münasibətlərini genişləndirməyə imkan verəcəkdir.

**- Vergi Məcəlləsinə son dəyişikliklərdə xüsusi diqqət çəkən məsələlərdən biri də gəlir vergisi ilə bağlıdır. Bu dəyişikliklər nədən ibarətdir və ölkə vətəndaşlarına nə verəcəkdir?**

- Dəyişikliklərə əsasən, fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsi 30 faizdən 25 faizə endirilmiş, aylıq və illik gəlirlərin 14 faiz dərəcə ilə vergiyə cəlb edilən məbləğləri, müvafiq olaraq, 2000 manatdan 2500 manatadək və 24000 manatdan 30000 manata qədər qaldırılmışdır.

Bununla yanaşı, gəlir vergisi üzrə güzəştlərin həcmi də genişləndirilmişdir. Əlillərin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların aylıq gəlirlərinin vergidən azad olunan məbləğləri 2 dəfəyədək artırılmışdır.

**I-II** qrup müharibə əlillərinə muzdlu işlə əlaqədar aylıq gəlirinin vergi tutulan məbləğinin 400 manat məbləğində azaldılmasını nəzərdə tutan güzəşt hüququ indi bütün qruplardan olan müharibə əlillərinə şamil edilmişdir. Muzdlu işlə əlaqədar aylıq gəliri 200 manatadək, illik gəliri 2400 manatadək olan şəxslərə verilən güzəştin məbləği də artırılmışdır. Bu güzəştin müəyyən edilməsində istifadə olunan «minimum əməkhaqqı» məbləği (93,5 manat) «əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumu» məbləği (125 manat) ilə əvəz olunmuşdur.

Fiziki şəxslərin gəlir vergisində edilmiş dəyişikliklər vətəndaşların gəlirlərinin böyük bir hissəsinin onların sərəncamında qalmasına şərait yaratmaqla yanaşı, eyni zamanda, əmək haqlarının leqallaşdırılması istiqamətində aparılan iqtisadi təşviqetmənin tərkib hissəsi də hesab edilə bilər.

Onu da nəzərinizə çatdırım ki, qeyd olunan güzəşt və imtiyazlar nəticəsində təkcə bu il əlavə olaraq 47 milyon manatdan artıq vəsaitin vergi ödəyicilərinin və vətəndaşların sərəncamında qalacağı gözlənilir. Bu vəsait sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, vətəndaşların sosial və digər problemlərinin həlli üçün kifayət qədər əhəmiyyətli dəstək olacaqdır.

**- Akif müəllim, Vergi Məcəlləsinə son dəyişikliklərdə qanunvericiliklə sahibkarlıq subyektlərinə vergi güzəştlərinin miqyası əhəmiyyətli şəkildə artırılmışdır. Bu, hansı zərurətdən irəli gəlir?**

- Vergilər maliyyə sisteminin bir hissəsi olmaqla, dövlətin iqtisadi tənzimlənmə alətlərindən biri kimi çıxış edir. Dövlət vergi ödəyicilərinə bu və ya digər vergi güzəştlərini verərkən, ilk növbədə, vergi tənzimlənməsinin müxtəlif iqtisadi proseslərə təsirini gücləndirir.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdə vergi güzəştlərini iki əsas qrupa bölmək olar. Birinci qrupa daxil olan vergi güzəştləri, yuxarıda qeyd edildiyi kimi, sosial məqsəd daşıyaraq vergi ödəyicilərinin maddi vəziyyətinin yaxşılaşdırılmasına, ikinci qrupa daxil olan vergi güzəştləri isə stimullaşdırıcı xarakter daşıyaraq müəyyən sahələrin inkişafının təmin edilməsinə yönəldilmişdir.

Azərbaycanın yaxın illərdə qarşısında duran əsas məsələlərdən biri iqtisadiyyatda karbohidrogen ehtiyatlarından asılılığı aradan qaldırmaq və iqtisadi artımın qeyri-neft sektorunun, o cümlədən onun aparıcı tərkib hissəsi olan sənaye sektorunun hesabına təmin etməkdir. Sənayenin innovasiyalar əsasında inkişafının təmin olunması, texnoparkların sənayeləşmədə əsas strateji layihələr kimi yer alması «Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da başlıca hədəflər sırasındadır. Yaxın gələcəkdə dövlət investisiya siyasətində əsas istiqamətlərdən biri də sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması və qeyri-neft sənayesinin inkişaf etdirilməsi ilə bağlı olacaqdır. Bu proses artıq start götürmüşdür. Sumqayıt şəhərində Kimya Sənaye Parkı, Yüksək Texnologiyalar Parkı və Balaxanı Sənaye Parkının yaradılması bu istiqamətdə atılmış ilk addımlardır.

Bu baxımdan, orta və uzunmüddətli perspektivdə texnoparkların inkişafını stimullaşdırmaq üçün ölkənin vergi qanunvericiliyində sənaye və texnologiyalar parklarında çalışan fiziki və hüquqi şəxslərə, eləcə də parkların idarəedici təşkilat və operatorlarına gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergiləri üzrə 7 illik vergi güzəştləri nəzərdə tutulmuşdur.

Hesab edirəm ki, Vergi Məcəlləsinə texnoparklarla bağlı edilmiş əlavə və dəyişikliklər iqtisadiyyatın inkişafına müsbət təsir göstərəcək, layihələrin miqyasının artmasına, bu sahəyə investorların cəlb olunmasına, yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye məhsullarının istehsalına, yeni iş yerlərinin yaradılmasına imkan verəcəkdir.

**- Məcəlləyə dəyişikliklərin mühüm bir hissəsi də vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsinə yönəldilmişdir...**

- Vergi inzibatçılığının təkmilləşdirilməsi həmişə vergi siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur. Təsadüfi deyildir ki, Vergi Məcəlləsinə edilmiş 70-ə yaxın dəyişiklik vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsini nəzərdə tutur.

Bu sırada əsas yeniliklər sırasında elektron auditin tətbiqi ilə əlaqədar dəyişiklikləri xüsusi vurğulamaq lazımdır. Bu dəyişiklik və əlavələr nəticəsində ilk dəfə qanunvericilikdə elektron auditin tətbiqi üçün normativ-hüquqi baza yaradılmışdır. Dəyişikliklərə elektron fayl formasında sənədlərin tələb edilməsi, elektron daşıyıcılardakı məlumatlara birbaşa və ya məsafədən çıxış imkanının yaradılması, elektron qaydada audit aparılan zaman sənədlərin müəyyən edilmiş müddətdə təqdim edilməməsi, biləndən təhrif olunmuş formada təqdim edilməsi və sənədlərin qanunla müəyyən edilmiş müddətdə saxlanılmamasına görə maliyyə sanksiyasının tətbiqi daxildir.

Hesab edirəm ki, elektron auditin tətbiqi ölkəmizin milli vergi sisteminin yaxın gələcək üçün həyata keçirəcəyi ən mühüm və perspektivli layihələrdən biridir və İT təməlli bilik menecmentinə əsaslanan müasir vergi inzibatçılığının inkişafına böyük töhfə verəcəkdir.

Vergi inzibatçılığına dair digər dəyişikliklər əsas etibarilə vergi ödəyiciləri tərəfindən POS-terminalların quraşdırılmasını, vergi orqanı tərəfindən kameral yoxlama zamanı vergilərin vergi orqanının qərarı əsasında hesablanmasını, bank və kredit təşkilatları tərəfindən məlumatların verilməsi qaydalarının təkmilləşdirilməsini, yol vergisinin hesablanmasının və ödənilməsinin təkmilləşdirilməsini, təbii inhisar subyektlərinin sadələşdirilmiş vergitutma sistemini tətbiq etmək hüququnun olmamasını nəzərdə tutan maddələrdən ibarətdir.

Mühüm bir dəyişiklik daşınmaz əmlakın aylıq icarə haqqı məbləğlərinə bazar qiymətlərinin tətbiqi ilə bağlıdır. Bu dəyişiklik icarənin vergiyə cəlb olunması zamanı mübahisə yaradan məsələlərin aradan qaldırılması məqsədi ilə edilmişdir. Bu sahədə çoxlu problemlər mövcuddur, xüsusən şəhərin mərkəzində obyektlərdən yüksək məbləğdəki icarə haqları qat-qat aşağı qiymətlə rəsmiləşdirilir, külli miqdarda vergidən yayınma halları baş verir. Bir çox hallarda rəsmiləşdirilən icarə məbləğləri vergi orqanları ilə vergi ödəyiciləri arasında mübahisəyə səbəb olur. Bu zaman obyektin dostlara, qohumlara icarəyə verilməsi kimi əsaslar gətirən bəzi vergi ödəyiciləri bu yolla vergilərdən yayınmağa çalışırlar. Bu məsələyə dair hətta Konstitusiya Məhkəməsinin qərarı olmuşdur və bildirilmişdir ki, icarə haqqının məbləği tərəflər arasında müqavilə ilə tənzimlənməlidir, lakin vergitutma məqsədləri üçün bazar qiyməti əsas götürülməlidir.

Beləliklə, bundan sonra daşınmaz əmlakın (yaşayış fondu istisna olmaqla) vergitutma məqsədləri üçün aylıq icarə haqqının məbləği bazar qiymətləri nəzərə alınmaqla müəyyən ediləcəkdir. Yəni sahibkar əmlakını istənilən qiymətə icarəyə verə bilər, az məbləğdə icarə haqqı ala bilər, lakin bu, vergi məbləğinə təsir etməməlidir. Buna görə də vergitutma məqsədləri üçün əmlakın bazar dəyəri əsas götürüləcəkdir.

Hazırda Vergi Məcəlləsinin müvafiq müddəaları bazar qiymətlərinin müəyyən edilməsinə imkan verir. Bu zaman rəsmi mənbələrdən əldə edilmiş məlumatlar, dövlət və yerli icra hakimiyyətlərinin məlumat bazaları, vergi ödəyicilərinin bəyan etdikləri məlumatlar, eləcə də vergi qanunvericiliyi ilə istifadəsinə icazə verilən məlumat mənbələri bazar qiymətlərinin müəyyən edilməsi üçün əsasdır.

Vergi nəzarətinin təkmilləşdirilməsi istiqamətində Vergi Məcəlləsinə edilmiş dəyişikliklər sırasında vergi ödəyicisinin filialı, nümayəndəliyi və digər təsərrüfat subyektlərinin olduğu ünvan üzrə uçota alınması, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş sənəd əsasında vergi orqanlarında uçota alınması, vergi ödəyicisində əmlak vergisinin hesablanması və ödənilməsinin düzgünlüyü yoxlanılarkən inventarizasiya aparılması, vergi orqanının əsaslandırılmış qərarına əsasən növbəti və növbədənkənar səyyar vergi yoxlamalarının 9 aydan çox olmayan müddətdə dayandırılması kimi dəyişiklikləri göstərmək olar.

**- Akif müəllim, dəyişikliklər sırasında ƏDV-nin tətbiqi ilə bağlı məsələlər də mühüm yer tutur. ƏDV-nin tətbiqi mexanizmindəki yeniliklər barədə məlumat verməyinizi xahiş edərdik.**

- ƏDV-nin tətbiqi ilə bağlı Vergi Məcəlləsinə edilən əsas dəyişikliklər ƏDV məqsədləri üçün qeydiyyata dair dövriyyə həddinin müəyyən olunmasında və ƏDV-nin hesablanması qaydasında dəyişikliklərin edilməsi ilə bağlıdır.

Həmin dəyişikliklərin birində ƏDV ödəyicisi kimi qeydiyyata alınmalı olan hüquqi və fiziki şəxslər üçün ardıcıl 12 aylıq dövr ərzində vergi tutulan əməliyyatların həcmi eyniləşdirilərək 120 min manat məbləğində müəyyən edilmişdir.

Digər dəyişiklikdə isə ƏDV-nin ödənilmiş məbləğlərdən hesablanması nəzərdə tutulur. Bu, olduqca mühüm dəyişiklikdir və birbaşa vergi ödəyicilərinin mənafeyinə xidmət edir. ƏDV-nin ödənilmiş vəsaitdən hesablanması o halda tətbiq ediləcəkdir ki, təqdim olunmuş malların (işlərin, xidmətlərin) dəyəri 30 gündən gec olmayaraq ödənilmiş olsun.

Bu dəyişiklik büdcəyə hesablanan verginin ödənilməsi üçün ödəyicilərin maliyyə imkanlarının artırılmasına imkan yaratmaqla debitor borclarının vaxtında alınması üçün onlarda stimul yaradacaqdır. Eyni zamanda, ƏDV-nin hesablanması və əvəzləşdirilməsi qaydasına vahid prinsip əsasında yanaşma təmin ediləcəkdir.

**- Ödənişli təhsilin ƏDV-dən azad olunması 2013-cü il üçün ölkənin ali məktəblərinə, belə demək mümkünsə, gözəl bir hədiyyə oldu. Sizin fikrinizcə, bu addım təhsil haqlarına necə təsir edəcək və qiymətin formalaşması mexanizmi necə olacaqdır?**

- Vergi Məcəlləsinin ƏDV-dən azadolmalara dair maddəsində edilmiş dəyişikliklərə əsasən, iştirak paylarının və səhmlərin satışı, eləcə də pullu təhsil xidmətləri ƏDV-dən azad olunmuşdur. Bunlar da öz növbəsində təhsil sahəsinin və qiymətli kağızlar bazarının inkişafına öz müsbət təsirini göstərəcəkdir.

Məlumdur ki, mövcud qanunvericiliyə görə, təhsil haqlarının müəyyən olunmasında təhsil müəssisələri sərbəstdirlər. Dövlət tərəfindən, tənzimlənən qiymətlərdən başqa, qiymətin formalaşmasına müdaxilə edilmir. Bununla belə, ƏDV istehlak vergisi olduğundan onun qiymətə birbaşa təsiri var. Ona görə də bu cür azadolma əhəmiyyətli dərəcədə qiymətin aşağı salınmasına şərait yarada bilər. Sözsüz ki, 18 faiz vəsait təhsil müəssisələrinə bir tərəfdən yeni texnologiyaların və avadanlıqların alınmasına, işçilərin əmək haqlarının artırılmasına, digər tərəfdən isə əhali üçün əhəmiyyət kəsb edən təhsil haqqının da müəyyən dərəcədə aşağı salınmasına imkan verir. Lakin təhsil müəssisələrinin sərəncamında qalacaq vəsaitlərdən necə istifadə məsələsi həmin müəssisələrin özündən asılıdır. Hesab edirəm ki, istənilən halda bu addımın təhsil müəssisələrinin maliyyə imkanlarına müsbət təsir edəcəyini söyləmək olar.

**- Vergi Məcəlləsinə edilən dəyişikliklərdə vergi ödəyiciləri üçün vacib olan bir yenilik də vardır ki, bu da əsas vəsaitlərin yenidən qiymətləndirilməsi ilə bağlıdır. Bu proses kim tərəfindən aparılacaq və necə həyata keçiriləcəkdir?**

- Bir çox müəssisələr əlavə vergi yükünə məruz qalmamaq üçün öz əmlaklarını yenidən qiymətləndirmirdilər. Bu, xüsusən sığorta məsələlərində özünü büruzə verirdi. Əsas vəsaitin balans dəyəri aşağı olduğu halda, həmin əmlak qat-qat yuxarı qiymətlə sığorta olunurdu. Çünki həmin əmlakın real bazar qiyməti çox yüksək idi. İndi isə bu dəyişiklik müəssisələrə mənfəət və əmlak vergisi ödəmədən yenidən qiymətləndirmə apararaq öz əmlakının dəyərini artırmağa imkan verəcəkdir. Yenidən qiymətləndirmənin kim tərəfindən aparılmasına gəldikdə, bu məsələ qiymətləndirmə haqqında qanunvericiliyə uyğun olaraq öz həllini tapmalıdır.

**- Daha bir dəyişikliklə sadələşdirilmiş vergi ödəyiciləri olan hüquqi şəxslər üçün müəyyən edilmiş həddin 120 min manata endirilməsi nəzərdə tutulur. Bu dəyişikliyin zərurəti nədən qaynaqlanır?**

- Ümumiyyətlə, əksər beynəlxalq institutlar (Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Maliyyə Korporasiyası, Amerika Ticarət Palatası və s.) və vergi mütəxəssisləri sadələşdirilmiş verginin tətbiqinin əleyhinədirlər. Bəzi hallarda eyni yerdə eyni fəaliyyətlə məşğul olan vergi ödəyiciləri vergiləri fərqli dərəcələrlə ödəyirlər. Bu da müəyyən suallara səbəb olur. Həmin səbəbdən, bu dəfə həddin 120 min manata endirilməsi qərara alındı. Gələcəkdə isə bu həddin daha da aşağı salınması mümkün ola bilər. Ölkəmizdə 480 mindən çox vergi ödəyicisi qeydiyyatda olsa da, onların cəmi 19 mini əlavə dəyər vergisinin ödəyicisidir. Bu isə çox azdır.

**- Akif müəllim, vergi ödəyicilərinin bank hesablarında olan vəsaitlərinin dondurulması ilə bağlı dəyişikliklərə də aydınlıq gətirərdiniz.**

- Vergi Məcəlləsinə edilən daha bir dəyişiklik vergi orqanları tərəfindən vergi ödəyicilərinin bank hesablarında olan vəsaitlərinə sərəncam qoyulması ilə bağlıdır. Məcəlləyə edilmiş son dəyişikliklərdən sonra vergi orqanı tərəfindən hesablanmış vergilər, faizlər və tətbiq olunmuş maliyyə sanksiyalarının bank hesablarındakı vəsaitlərdən silinməsi bu barədə bildirişin alındığı tarixdən 30 təqvim günü müddətində məhkəməyə şikayət verilmədiyi halda həyata keçiriləcəkdir.

Əvvəllər vergi orqanı hesabladığı vergiləri 5 gündən sonra sahibkarlıq subyektlərinin hesabına sərəncam qoyaraq mübahisəsiz silirdi. İndi isə vergi ödəyicisi 30 gün ərzində vergi orqanının qərarından məhkəməyə şikayət verə bilər. Həmin vəsaitlərin silinməsi isə məhkəmənin qərarına uyğun olaraq həll olunacaqdır.

Buna görə də vergi orqanı tərəfindən həmin vergilər, faizlər hesablananda və ya maliyyə sanksiyaları tətbiq ediləndə, vergi ödəyicisi bununla razılaşmazsa və həmin qərarlardan məhkəməyə müraciət edərsə, bu şikayətlərə məhkəmədə baxıldığı dövrdə və həmin şikayət üzrə məhkəmənin çıxardığı qərar qanuni qüvvəyə minənədək vergi ödəyicilərinin hesabında olan vəsaitlər silinməyəcək və yalnız mübahisəli məbləğin 105 faizi həcmində dondurulması həyata keçiriləcəkdir. Vəsaitlərin hesabda dondurulması vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir. Beləliklə də vergi ödəyicisi öz hüquqlarını qorumaq üçün daha bir mühüm imkan əldə etmişdir.

Hesab edirəm ki, Vergi Məcəlləsinə cari il üçün edilmiş dəyişikliklər təkcə vergi ödəyicilərinin mənafelərinin qorunması və hüquqlarının artırılması baxımından deyil, həm də bütövlükdə iqtisadiyyatın perspektiv inkişaf prosesinin stimullaşdırılması və vergi inzibatçılığı sahəsində innovasiya yönümlü intellektual texnologiyaların inkişafı və tətbiqi baxımından əhəmiyyətli olacaqdır.

# Sadələşdirilmiş vergi bəyannaməsi

## Hüquqi şəxslər üzrə 1№-li Əlavənin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi

Qulu Soltanov,
sərbəst auditor

**Əvvəli ötən saylarımızda**

**Sətir 1.10 «Digər aktivlər». «dövr ərzində daxil olmuşdur»** sütununda: Əsasən 06№-li «Uzunmüddətli maliyyə qoyuluşları», 58№-li «Qısamüddətli maliyyə qoyuluşları», 73№-li «Sair əməliyyatlar üzrə işçi heyəti ilə hesablaşmalar» və 84№-li «Sərvətlərin əskikgəlməsi və xarabolmasından itkilər» hesablarının debet dövriyyəsi üzrə illik yekun məbləği əks etdirilir. Məsələn, DB 06 - KR 51, DB 58 - KR 50, DB 06 - KR 10, DB 73 - KR 50 ikili yazılışları. **«təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir»** sütununda: *Təqdim edilmişdir:* boş saxlanılır. *Silinmişdir:* 06, 58, 73 və 84№-li hesabların kredit dövriyyəsi üzrə illik yekun məbləği əks etdirilir (silinən ümidsiz debitor borc məbləğlərdən başqa). Məsələn, DB 50, 51, 52, - KR 06, 58, 73, 84, DB 10, 01 - KR 06, 58, 73, 84 ikili yazılışları. *Ləğv edilmişdir:* əvvəlki və cari hesabat dövründə verilmiş borc məbləğləri kimi 06, 58, 73 və 84 №-li hesabın debetində əks etdirilən və sonradan alınması (geri qaytarılması) mümkün olmayan ümidsiz debitor (verilmiş borc) məbləğləri kimi silinən (06, 58, 73 və 84 №-li hesabların kreditində uçota alınan) dövriyyələr göstərilir. Məsələn, DB 80, 86, 87, 88 - KR 06, 58, 73, 84 ikili yazılışları.

Lakin Əlavənin 1.10-cu sətrində göstərilməli olan məlumatlar maliyyə qoyuluşlarına (qoyulmuş investisiyalara, verilmiş borclara) dair dövriyyələrlə məhdudlaşdırıla bilməz. Məsələn, 61, 63, 67, 69, 75, 76, 78, 84, 80 №-li hesablar üzrə hesabat ilinin sonunda debet qalıqları qala bilər. Misal kimi göstərmək olar ki, hesabat ilinin sonuna sosial sığorta ayırmaları üzrə DSMF-yə artıq ödəmələr (69№-li hesab üzrə debet qalığı) yarana bilər. Aydındır ki, 69№-li hesab «kreditor» hesablara (kreditor borclar barədə hesablara) aiddir. Belə olan halda, 69№-li hesabın ilin sonuna debet qalığı Əlavənin 1.10-cu sətrinin «dövr ərzində daxil olmuşdur» sütununda nəzərə alınmalıdır və həmin sətrin qalığına da daxil edilməlidir. 61, 63, 67, 75, 76, 78, 80 №-li hesablar üzrə də ilin sonuna debet qalıqları Əlavənin 1.10-cu sətrinin «dövr ərzində daxil olmuşdur» sütununda nəzərə alınmalıdır.

***Bir misal.*** Vergi ödəyicisinin hesabat ilində əməliyyatları aşağıdakı kimi olmuşdur (*bax: cədvəl 1*).

Bu əməliyyatlar üzrə məbləğlər dövriyyə cədvəlində aşağıdakı kimi olacaqdır (*bax: cədvəl 2*).

Belə halda həmin göstəricilər bəyannamənin Əlavəsində aşağıdakı kimi əks etdirilməlidir (*bax: cədvəl 3*).

Cədvəldən göründüyü kimi, 06, 58, 61, 69 və 80 №-li hesabların debet dövriyyəsi üzrə yekun məbləğ 62000 manat olmasına baxmayaraq, Əlavədə 42650 manat göstərilib, həmçinin həmin hesablar üzrə yekun kredit dövriyyəsi 25600 manat göstərilməsinə baxmayaraq, Əlavədə 6300 manat göstərilib. Son qalıq məbləği isə düzgündür.

Əlavənin 1.10-cu sətrinin «dövr ərzində daxil olmuşdur» sütununda 42650 manatın göstərilməsinə aydınlıq gətirək. 69№-li hesab mütləq kreditor (passiv) hesabdır və bu hesabın qalığı əsasən kredit qalığı ilə nəticələnməlidir, yəni yaranmış sosial sığorta öhdəliyi üzrə ödəniş aparılarkən vergi ödəyicisi öhdəlikdən artıq məbləğ ödəməyə vərdişli deyildir. Lakin bəzi hallarda (sosial sığorta) vergi ödəyicisi öhdəlikdən əlavə ödəniş etməklə artıq ödəmə yaradır. Belə halda 69№-li hesab üzrə ilin sonuna debet qalığı 1.10-cu sətrin «dövr ərzində daxil olmuşdur» sütununda əks etdirilir. Eyni zamanda 69№-li hesabın kredit dövriyyəsi üzrə 2300 manat məbləğ Əlavənin 2.2.1.5-ci (sair kreditor borcları) sətrinin «təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütunu üzrə «silinmişdir» yerində, 2350 manat (2500 manat debet dövriyyəsi çıxılsın 150 manat qalıq) məbləğ isə həmin sətrin «dövr ərzində daxil olmuşdur» sütununda əks etdirilməlidir. Deməli, nəticədə 69 №-li hesabın 2500 manat debet dövriyyəsindən yalnız 150 manatı (2350 manat az) Əlavənin 1.10-cu sətrinin «dövr ərzində daxil olmuşdur» sütununda əks etdirilib.

61№-li hesabın debet dövriyyəsi 60№-li hesabla müxabirləşir. Bu hesabların hər ikisi də malsatanlarla hesablaşmalar üçün nəzərdə tutulub və eyni əməliyyata (öhdəliyin ödənilməsinə) yönəldilən məbləğlərin (bizim misalda DB 60 - KR 61 = 17000) təkrarlanmaması üçün Əlavədə 61№-li hesabın ilin əvvəlinə və sonuna qalıq məbləğlərin fərqi nəzərə alınmalıdır, yəni 8000 manat çıxılsın 5000 manat bərabərdir 3000 manat qalıq artımı. Deməli, nəticədə 61№-li hesabın 20000 manat debet dövriyyəsindən yalnız 3000 manatı (17000 manat az) Əlavənin 1.10-cu sətrinin «dövr ərzində daxil olmuşdur» sütununda əks etdirilib.

Bununla da 06№-li hesab üzrə 30000 manat, 58№-li hesab üzrə 8000 manat, 61№-li hesab üzrə 3000 manat, 69№-li hesab üzrə 150 manat, 80№-li hesab üzrə 1500 manat, cəmi 42650 manat məbləğ Əlavənin 1.10-cu sətrinin «dövr ərzində daxil olmuşdur» sütununda əks etdirilir.

Əlavənin 1.10-cu sətrinin «təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütunu üzrə «silinmişdir» xanasında əks etdirilməli məbləğ riyazi hesablama yolu ilə tapılır (ilin əvvəlinə qalıq 6200 manat, üstəgəl daxil olan 42650 manat, çıxılçın ilin sonuna qalıq məbləğ 42550 manat, bərabərdir 6300 manat).

**Davamı növbəti sayımızda**

Cədvəl 1

| Əməliyyatların məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Bank hesabından malsatan təşkilatlara malların alınması üçün avans ödənilmişdir | 61 | 51 | 20000 |
| Təsisçisi olduğu müəssisənin nizamnamə kapitalına pay qoyuluşu kimi pul ödənilmişdir | 06 | 51 | 30000 |
| DSMF-na sosial sığorta haqqı ödənilmişdir | 69 | 51 | 2500 |
| Digər hüquqi şəxsə qısamüddətli borc verilmişdir. | 58 | 51 | 8000 |
| Malsatana verilmiş avans alınmış malların dəyəri qədər zaçot edilmişdir. | 60 | 61 | 17000 |
| Sosial sığorta haqqı hesablanmışdır (22%) | 20 | 69 | 2024 |
| Əmək haqqından sosial sığorta haqqı tutulmuşdur (3%) | 20 | 69 | 276 |
| Verilmiş qısamüddətli borcun bir hissəsi qaytarılmışdır | 51 | 58 | 6300 |
| Müəssisə hesabat ilini zərərlə başa vurmuşdur | 80 | 46 | 1500 |

Cədvəl 2

| Hes. №-si | Hesabın adı | 01 yanvar 2012-ci il tarixə qalıq | | 2012-ci ildə dövriyyə | | 01 yanvar 2013-cü il tarixə qalıq | |
|---|---|---|---|---|---|---|---|
| | | DEBET | KREDİT | DEBET | KREDİT | DEBET | KREDİT |
| 06 | | | | 30000 | | 30000 | |
| 58 | | 1200 | | 8000 | 6300 | 2900 | |
| 61 | | 5000 | | 20000 | 17000 | 8000 | |
| 69 | | | 50 | 2500 | 2300 | 150 | |
| 80 | | | | 1500 | | 1500 | |
| | **Cəmi pul hesabları üzrə** | **6200** | **50** | **62000** | **25600** | **42550** | |

Cədvəl 3

| Göstəricilər | Dövr ərzində daxil olmuşdur, manatla | Təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir, manatla | Hesabat dövrünün sonuna, manatla |
|---|---|---|---|
| 1.10 Digər aktivlər | 42650 | Təqdim edilmişdir:<br>Silinmişdir: 6300<br>Ləğv edilmişdir: | 42550 |

**2012-ci ildə ərazi vergilər idarələri üzrə 414,4 mln. manat proqnoza qarşı 445,5 mln. manat vergi daxil olmuşdur ki, bu da proqnozlaşdırıldığından 31,1 milyon manat (7,5%) çoxdur**

# Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı treninqlər keçirilir



Vergi Məcəlləsinin bu il yanvarın 1-dən qüvvəyə minmiş yeni müddəalarının tətbiqi, yeni qaydalara uyğun olaraq vergilərin hesablanması ilə bağlı ortaya çıxan sualların cavablandırılması, habelə vergi qanunvericiliyinə tam və dəqiq riayət edilməsi işlərində yerli vergi orqanlarına metodiki və digər köməklərin göstərilməsi istiqamətində Vergilər Nazirliyinin müvafiq struktur bölmələrində treninqlərin keçirilməsinə başlanılmışdır.

Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti, Vergi Cinayətlərinin İbtidai Araşdırılması və Vergi Auditi departamentlərinin, eləcə də 2 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşları nazirliyin müvafiq struktur bölmələrinin vəzifəli şəxsləri tərəfindən aparılan treninqlərdə iştirak etmişlər. Xüsusi Rejimli Vergi Xidməti Departamentində və Vergi Auditi Departamentində keçirilən treninqləri Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Həmid Zeynalov və Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin Monitorinq şöbəsinin rəisi Azər Şirinov aparmışlar.

Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində və 2 saylı Ərazi Vergilər İdarəsində keçirilən treninqlərdə Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin rəisi Şamil Ərəbov çıxış etmişdir. Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin Məlumatlandırma işinin təşkili şöbəsinin rəisi Baxdiyar Abdurəhmanov sual doğuran müxtəlif nüanslar haqqında tədbir iştirakçılarına lazımlı izahlar vermişdir.

Treninqlər zamanı Vergi Məcəlləsinə daxil edilmiş yeni anlayışlar, kameral və səyyar vergi yoxlamaları, operativ nəzarət tədbirləri, maliyyə sanksiyalarına edilmiş dəyişikliklər və s. yeniliklər şərh edilmişdir.

Canlı dialoq formasında gedən treninqlərin gedişində vergi qanunvericiliyinin ayrı-ayrı müdəaları iştirakçılar tərəfindən müzakirə edilmiş, ortaya çıxan suallar və problemlərin aradan qaldırılması yolları barədə ətraflı fikir mübadiləsi və qəqiqləşdirmələr aparılmışdır.

Qeyd edək ki, növbəti həftələrdə də yerli vergi orqanlarında analoji tədbirlərin keçirilməsi nəzərdə tutulur. Vergi orqanlarının əməkdaşlarına təlimlərin keçilməsi ilə yanaşı, vergi ödəyiciləri ilə də genişmiqyaslı maarifləndirmə və izahat işləri aparılır.

**Rəşad SADIQOV**

## Vergilərlə bağlı açıq dərs

Bakı Şəhər Vergilər Departamenti Binəqədi rayonundakı 99 saylı məktəbdə 6-cı sinif şagirdləri üçün «Vergilərin əhəmiyyəti» mövzusunda açıq dərs təşkil etmişdir. Tədbirdə məktəbin direktoru Ofelya Məmmədova, departamentin Vergi ödəyicilərinə xidmət idarəsinin Məlumatlandırma və vergi təbliğatı şöbəsinin dövlət vergi müfəttişi İlham Əliyev çıxış etmişlər. Açıq dərsi məktəbin müəllimi Fəridə Göbəkbəyova aparmışdır. Dərs zamanı hazırda tətbiq edilən dövlət vergiləri və yerli vergilər, rüsumlar, dövlət büdcəsinin gəlir və xərclərinin mənbə və istiqamətləri, nağdsız ödənişlərin əhəmiyyəti səhnələşdirilmiş formada təqdim olunmuş, vergilər mövzusunda atalar sözləri və şerlər səsləndirilmiş, dövlət büdcəsinin vəsaiti hesabına aparılan investisiya layihələri barədə uşaqlar üçün anlaşıqlı olan əyani vəsaitlər nümayiş etdirilmişdir.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Audit

# İlin sonuna qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olan əsas vəsaitlərlə bağlı uçot siyasəti

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 509-IVQD nömrəli Qanununa əsasən Vergi Məcəlləsinə edilmiş dəyişikliklər və əlavələr nəticəsində Məcəllənin 114.8-ci maddəsinə edilmiş əlavəyə görə ilin sonuna əsas vəsaitin qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olduqda qalıq dəyərinin məbləği hesabat ilində gəlirdən çıxılır. Burada «əsas vəsaitin» dedikdə əsas vəsaitin vahidi, «qalıq dəyəri 500 manatdan az» dedikdə vergi uçotunda əks etdirilən əsas vəsaitin vahidinin qalıq dəyərinin 500 manatdan (500 manat aid deyil) az olması, «ilkin dəyərinin 5 faizindən az olan» dedikdə isə əsas vəsait daxil olunan anda vergi uçotunda ilk dəfə əks etdirilən ilkin dəyərinin 5%-dən az olması başa düşülür.

Vergi ödəyicilərinin apardığı vergi uçotunda 2013-cü ilin əvvəlinə qalıq dəyəri 500 manatdan az və ya ilkin dəyərinin 5 faizindən aşağı olan əsas vəsaitlər mövçuddursa, 2013-cü ilin sonunda bu əsas vəsaitlərin həmin qalıq məbləğlərinə vergi uçotu məqsədləri üçün amortizasiya tətbiq etmədən Vergi Məcəlləsinin 114.8-ci maddəsinə uyğun olaraq gəlirdən çıxılan xərclərə aid etmək olar. Lakin bu o demək deyildir ki, həmin əsas vəsaitlər mütləq qaydada müəssisənin balansından silinməlidir və ya ləğv edilməlidir.

Audit zamanı ilin sonuna qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olan əsas vəsaitlərin sənədli ləğvini həyata keçirmədən həm mühasibat, həm də vergi uçotundan silinməsi hallarına diqqət yetirilməlidir. Vergi Məcəlləsinin 114.8-ci maddəsinin verdiyi hüquq əsas vəsaitin ləğv edilməsi üçün səbəb kimi qəbul edilməsi məntiqsiz görünür. Çünki sahibkar öz əmlakından maksimum istifadə etməyə və hətta tam amortizasiya olunan əsas vəsaitlərdən də istifadə etməyə maraqlıdır. Əsas vəsaitin ləğvi normal sahibkar düşüncəsinə görə həmin əsas vəsaitdən istifadə olunması mümkün olmadığı halda baş verə bilər. Hətta Vergi Məcəlləsində bunun məntiqi sübutu olaraq, 114.2.6-cı maddədə göstərilir ki, istismara yararlı olan tam amortizasiya olunmuş əsas vəsaitlər amortizasiya olunmayan aktiv kimi vergi uçotuna alınmalıdır.

Hesabat ilinin sonunda qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olan əsas vəsaitlərlə bağlı uçot siyasətində aşağıdakı qərarları vermək olar:

### Vergi uçotu üzrə

- Vergi uçotu məqsədləri üçün əsas vəsaitlərin ilin sonuna 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olan məbləğ göstəriciləri tam olaraq gəlirdən çıxılan xərclərə aid edilir, lakin əsas vəsaitlər ləğv olunmayaraq istismar olunur, həmçinin vergi uçotunda natural göstəricidə amortizasiya olunmayan aktiv kimi saxlanılır.
- Vergi uçotu məqsədləri üçün əsas vəsaitlərin ilin sonuna 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən aşağı məbləğ göstəriciləri tam olaraq gəlirdən çıxılan xərclərə aid edilir, lakin həmin əsas vəsaitlər hesabat ilində istifadəyə yararsız və ya hər hansı səbəb olduğuna görə müvafiq qaydada sənədləşdirilməklə ləğv olunur və bu halda qalıq dəyər gəlirdən çıxılan xərclərə aid edilir, həmçinin vergi uçotundan silinir.
- İlin sonuna qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olan əsas vəsaitlərin məbləğ göstəriciləri vergitutma məqsədləri üçün mütləq qaydada tam olaraq gəlirdən çıxılan xərclərə aid edilməsi tələbi qoyulmayıb, bu vergi ödəyicisinə verilən hüquqdur. Ona görə də vergi uçotu məqsədləri üçün həmin əsas vəsaitlərin 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olan məbləğ göstəricilərinə Vergi Məcəlləsi ilə müəyyənləşdirilən amortizasiya tətbiq olunur və yaranan məbləğ gəlirdən çıxılır.
- Vergi uçotu məqsədləri üçün əsas vəsaitlərin ilin sonuna 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən aşağı məbləğ göstəriciləri gəlirdən çıxılan xərclərə ümumiyyətlə aid edilmir və gələn illərin gəlirdən çıxılan xərclərinə aid edilməsi üçün saxlanılır.

### Mühasibat uçotu üzrə

- Mühasibat uçotu məqsədləri üçün ləğv olunan əsas vəsaitin mühasibat uçotu üzrə qalıq (balans) dəyəri hesabat ilində sair əməliyyat xərcləri kimi tanınır.
- Mühasibat uçotu məqsədləri üçün uçot siyasətinə uyğun olaraq tətbiq olunan amortizasiya metodu nəticəsində hesablanan amortizasiya məbləği hesabat ilində satışın maya dəyəri, kommersiya xərcləri və ya inzibati xərc kimi tanınır.

Dəyişikliklərə əsasən, Vergi Məcəlləsinin 159.5-ci maddəsinə görə malların tam amortizasiya olunmadan uçotdan silinməsi ƏDV üçün vergi tutulan əməliyyat sayılır və silinmə zamanı formalaşan qalıq dəyəri ƏDV-yə cəlb olunan əməliyyatların dəyərinə əlavə olunur. Bu maddədə «malların» ifadəsi «tam amortizasiya olunmadan» ifadəsinin leksik təsirini nəzərə alsaq «əsas vəsait» kimi qəbul edilir. Çünki amortizasiya olunan aktiv Vergi Məcəlləsinin 114.3-cü maddəsində nəzərdə tutulan aktivlərdir (mallardır və ya əsas vəsaitlərdir).

Bu dəyişikliyin tələbini nəzərə alsaq, deməli, qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olan əsas vəsaitlərin uçotdan silinməsinə 159.5-ci maddə tətbiq olunmur. Lakin qalıq dəyəri (və ya ilin əvvəlinə qalıq dəyəri) 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən çox olan əsas vəsaitlər hesabat ilində (və ya ilin sonunda) istifadəyə yararsız və ya hər hansı səbəbdən ləğv olunursa və ləğv anında vergitutma məqsədləri üçün əsas vəsaitin mövcud qalıq dəyəri ƏDV üçün vergitutma obyekti yaradır.

*Qeyd: vergitutma obyekti o halda yaranır ki, həmin əsas vəsaitlər əvvəllər alınarkən satıcıdan ƏDV hesab-fakturası alınsın, ƏDV-nin məbləği satıcının ƏDV depozit hesabına ödənilsin, əməliyyat kommersiya fəaliyyəti çərçivəsində baş vermiş olsun, müvafiq əvəzləşdirmə alınmış olsun və ya almaq hüququna malik olsun).*

beynəlxalq panoram

# İş yerlərinin rəsmiləşdirilməsi və əmək münasibətlərinə vergi nəzarəti

*İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə əmək münasibətlərinin tənzimlənməsinə xüsusi diqqət yetirilir. Vergi nəzarətindən kənarda qalan iş yerlərinin dövlət gəlirlərinə, sosial müdafiə sisteminə və ümumiyyətlə, iqtisadiyyata mənfi təsirləri elmi dairələrdə də geniş müzakirə mövzusudur.*

***Bəyan edilməmiş iş*** - mahiyyətcə qanuni olan, lakin barəsində aidiyyəti dövlət orqanına məlumat verilməmiş işdir. Beynəlxalq təcrübədə bəyan edilməmiş işçilərin dörd əsas forması müəyyən olunur: iki və ya daha çox işi olanlar, «iqtisadi passiv» şəxslər (tələbələr, evdar qadınlar və s.), işsizlər və qanunsuz miqrantlar. Bəyan edilməmiş işə, adətən, kölgə iqtisadiyyatının bir elementi kimi baxılır.

Beynəlxalq təcrübədə bəyan edilməmiş iş yerləri ilə bağlı problemi aradan qaldırmaq və əmək münasibətlərinə vergi nəzarətini gücləndirmək məqsədilə həyata keçirilən tədbirlər, əsasən, məcburetmə, məlumatlandırma, həvəsləndirmə və aşkaretmə istiqamətlərini əhatə edir.

### İş münasibətlərinin qeydiyyata alınması

***Əmək müqaviləsi*** - işəgötürənlə işçi arasında bağlanan əmək münasibətlərinin şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilədir. Ölkələrin əmək qanunvericiliklərinə əsasən, əmək müqaviləsi işəgötürən və işçi arasında onun imzalandığı gündən, müqavilədə nəzərdə tutulan vaxtdan və ya işçinin işəgötürənin razılığı ilə faktiki olaraq işə başladığı tarixdən qüvvəyə minir.

***Azərbaycan Respublikasının*** Əmək Məcəlləsinin 46-cı maddəsində işəgötürənlə işçi arasında müvafiq işlərin görülməsi, xidmətlərin göstərilməsi üçün əmək müqaviləsinin bağlanılması nəzərdə tutulur.

***ABŞ-da*** işəgötürən tərəfindən işçi barədə məlumatların müvafiq icra hakimiyyəti orqanına təqdim olunması tələb olunur. Məsələn, Nyu-Yorkda yeni işçilər barədə məlumat işə başlayandan sonra 20 gün müddətində ya onlayn, ya da poçt vasitəsilə Nyu-york Vergi və Maliyyə Departamentinə təqdim olunmalıdır.

***Rumıniyada*** işəgötürən bütün işçilər üzrə reyestr məlumatlarını elektron poçt və ya onlayn qaydada yerli əmək müfəttişliyinə göndərməlidir. Bu məlumatlar işə qəbul ediləndən 20 gün müddətində təqdim edilməlidir. Əmək münasibətlərinə edilən dəyişiklik haqqında isə 5 gün müddətində məlumat verilməlidir.

***Bolqarıstanda*** əmək müqaviləsi məcburi qaydada qeydiyyata alınmalıdır. Qeydiyyata məsul qurum Milli Gəlir Agentliyinin regional direktorluğudur. İşəgötürən yeni müqavilə və ya dəyişiklik barədə, eləcə də sığorta edilən şəxslər və sosial ödəmələr barədə 3 gün ərzində məsul quruma bildiriş verməlidir.

***İtaliyada*** şirkətlər öz işçilərinin vahid reyestrini yaratmalı (əvvəl müqavilə tiplərinə görə müxtəlif reyestrlər mövcud idi) və işçi işə başlamazdan bir gün əvvəl Əmək müfəttişliyinə məlumat verməlidir.

***İrlandiyada*** tikinti, meşəçilik, yol daşımaları, təmizləmə xidmətləri, təhlükəsizlik xidmətləri, iaşə və digər sahələrdə yeni əmək müqavilələri və ya podratçılar barədə bildirişlər bir ay ərzində Sosial Xidmətlər Departamentinə göndərilməlidir.

***Fransada*** işəgötürən işçi işə başlayana qədər onu sosial müdafiə orqanına bəyan etməlidir. Lakin ümumi əmək müqavilələri üzrə qeydiyyat öhdəliyi yoxdur.

***Lüksemburqda*** evdə çalışan şəxslər üçün xüsusi normalar müəyyən edilir:



işəgötürən işçi ilə əmək münasibətlərinə dair sadə bəyannamə doldurur (əməkhaqqını göstərməklə) və onu Sosial Sığorta Mərkəzinə göndərir. Rəsmiləşdirmə ilə bağlı digər bütün tədbirlər Mərkəz tərəfindən görülür.

***Belçikada*** işəgötürənlər işçini dərhal bəyan etməlidirlər. Elektron formada təqdim olunan məlumatlar yerli işçilər üçün DİMONA sistemi, əcnəbi-miqrantlar üçün isə LİMOSA sistemi vasitəsilə həyata keçirilir. Miqrantlar könüllü surətdə Limosa sistemində elektron qaydada qeydiyyatdan keçməlidirlər. Onlar yalnız qeydiyyat vərəqəsi aldıqdan sonra işəgötürənlə əmək münasibətlərinə girə bilərlər.

***Avstriyada*** işçi işə başlamazdan əvvəl işəgötürən işçilərlə girdiyi əmək münasibətləri barədə müvafiq sosial sığorta qurumunu xəbərdar edir.

***Slovakiyada*** hər bir işəgötürən işçi işə başlamazdan əvvəl (bir gündən gec olmayaraq) faks və ya digər elektron vasitələrlə hər bir əmək müqaviləsi barədə Sosial Sığorta Agentliyinə məlumat verməlidir. Bundan əlavə, işəgötürən hər bir əmək müqaviləsinin başlama və bitmə tarixlərini Agentlikdə qeydiyyatdan keçirməlidir.

### Qanunvericiliyin pozulmasına görə cərimə və cəzalar

İş münasibətlərinin qeydiyyata alınması tələbinin pozulmasına görə müxtəlif cərimə və cəzalar müəyyən olunur.

***İtaliyada*** cəzaların effektivliyini artırmaq üçün maliyyə cərimələrinin məbləği 5 dəfə qaldırılmış, bəyan edilməmiş işçilərə görə isə şirkətin fəaliyyətinin dayandırılması nəzərdə tutulmuşdur. Tikinti sektorunda işəgötürən qeydiyyatla bağlı öhdəliyini yerinə yetirməzsə, əmək müqaviləsi imzalanmayan hər bir işçi üçün 1500 avrodan 12000 avroyadək cərimə tətbiq edilə bilər.

***Avstriyada*** yeni işçiləri qeydiyyata almamağa görə cərimələr 2007-ci ildə 3630 avrodan 5000 avroya qaldırılmışdı. Bundan əlavə, mütəşəkkil qaydada qanunsuz işçi götürən və onları qeydiyyata almayanlara 2 il həbs cəzası müəyyən edilmişdir. Onu da qeyd edək ki, ölkədə bu çəkindirmə tədbirlərinin qiymətləndirilməsi aparılmamışdır və məhkəmələr, demək olar ki, həbs cəzasını tətbiq etməmişlər.

***Rumıniyada*** işçilərin reyestrinin yaradılmamasına, tələb olunan məlumatın vaxtında verilməməsinə görə 550 avrodan 1390 avroya qədər cərimə nəzərdə tutulmuşdur.

***Belçikada*** qeydiyyat sisteminin tələblərinə əməl edilməməsinə görə 2500 avrodan 12500 avroyadək cərimə tətbiq edilə bilər.

***Slovakiyada*** 2004-cü ildə yeni işçini qeydiyyata almamağa görə cərimələr 16600 avroya qaldırılmışdır.

***Çexiya, Danimarka, Fransa, Niderland və Böyük Britaniyada*** da son vaxtlar bu cür sanksiyalar sərtləşdirilmişdir.

### Əmək qanunvericiliyinin sadələşdirilməsi

***Fransada*** 1994-cü ildə İş Çeki Xidməti yaradılmışdır. Bu proqramın məqsədi ev təsərrüfatı işçilərinin (təmizlik, dayə, təmir və s.) işə götürülməsi və onlara ödəniş edilməsini sadələşdirmək idi. Proqramın köməyi ilə istənilən şəxs mürəkkəb inzibati prosedurlara vaxt itirmədən, əmək müqaviləsi bağlamadan ev işləri üçün işçi götürə bilər. İşçilərin maaşı isə bankdan alınan xüsusi çeklə (vouçerlə) ödənilir. Buna oxşar digər proqram 1996-cı ildə tətbiq olunmuşdur. Onun əvvəlkindən fərqi isə vouçerin bankdan deyil, yerli icra hakimiyyəti orqanından alınmasıdır.

***Almaniyada*** 2002-ci ildə kiçik həcmli məşğuliyyət sektorunda həyata keçirilmiş islahat nəticəsində 3 növ «xırda iş» kateqoriyası müəyyən edilmişdir: aylıq 400 avroluq işlər, ev təsərüffatında olan xırda işlər, orta məbləğli işlər. Hər bir kateqoriya üzrə proqressiv vergi ödəmələri müəyyən edilmişdir.

### Bəyan edilməmiş iş münasibətləri ilə mübarizə üzrə strukturların yaradılması

Beynəlxalq təcrübədə bəyan edilməmiş iş yerlərinə qarşı mübarizənin səmərəsiz olmasının əsas səbəblərindən biri kimi aidiyyəti qurumlar arasında strateji və əməliyyat səviyyəsində koordinasiyanın olmaması göstərilir. Bunu nəzərə alaraq, bir sıra ölkələrdə koordinasiya qurumları yaradılmışdır.

İtaliyada bu işlərlə Qanunsuz İqtisadiyyat ilə Mübarizə Komitəsi, Almaniyada Bəyan Edilməmiş İşlər üzrə Vergi Nəzarəti İdarəsi, Lüksemburqda Qanunsuz İşlərlə Mübarizə üzrə Administrasiyalararası İdarə, Finlandiyada İqtisadi Cinayətlərə qarşı Mübarizə üzrə İdarəetmə Qrupu, Litvada Dövlət Əmək Müfəttişliyi, Polşada Milli Əmək Müfəttişliyi, Fransada isə Qanunsuz İşlərlə Mübarizə üzrə Qurumlararası Nümayəndəlik məşğul olur.

Türkiyədə 2008-ci ildə «Qeyri-rəsmi iqtisadiyyata qarşı mübarizə strategiyası üzrə fəaliyyət planı» qəbul edilmişdir. Milli Gəlirlər Administrasiyasının əlaqələndiricisi olduğu bu planın məqsədi müxtəlif qurumların məlumat bazalarını birləşdirmək, audit qabiliyyətini gücləndirmək, vergi ödəyicilərinin könüllü əməletməsini, sanksiyaların çəkindirmə qabiliyyətini və maarifləndirməni artırmaqdır.

### Subpodratçıların əməllərinə görə hüquqi məsuliyyət

Subpodratçılar vasitəsilə vergidən yayınmanın qarşısını almaq üçün bir sıra Avropa ölkələri, o cümlədən Niderland, Fransa, Böyük Britaniya, Almaniya, Finlandiya və Avstriya əsas podratçını subpodratçıların bütün qaydalara əməl etməsi, o cümlədən vergi əməletməsi üzrə məsul edən qanunlar qəbul etmişlər. Məsələn, 2006-cı ildə Finlandiyada qəbul edilmiş Podratçıların Məsuliyyəti Aktına görə, əsas podratçı subpodratçıların əmək münasibətlərini bütün qaydalara uyğun rəsmiləşdirməsinə məsuliyyət daşıyır. Podratçılar, həmçinin, subpodratçıların vergi qeydiyyatında və işçilərinin aidiyyəti qurumda qeydiyyatda olması, ƏDV hesabı, habelə həmin subpodratçının vergilərini və sosial ödəmələrini ödəməsi barədə sənədləri tələb etməlidirlər.

### Beynəlxalq təcrübədən göründüyü kimi...

Vergi orqanları bəyan edilməmiş iş fenomeni ilə mübarizə aparmaq üçün yardım, həvəsləndirmə və məcburetməni balanslaşdırılmış şəkildə birləşdirən yanaşmaya üstünlük verirlər. Bundan əlavə, əmək münasibətlərinin rəsmiləşdirilməməsi kölgə iqtisadiyyatının elementi olduğundan, bu problemin həlli məsələyə daha müfəssəl müstəvidə baxılmasını tələb edir. Bu məqsədlə bir sıra ölkələr kölgə iqtisadiyyatı ilə mübarizə üzrə dövlət proqramları çərçivəsində tədbirlər həyata keçirirlər. Araşdırmalar göstərir ki, kölgə iqtisadiyyatı, əsasən, kiçik və orta biznes sahələrində mərkəzləşir. Bu sahələri audit vasitəsilə nəzarətdə saxlamaq mümkün olmadığı üçün problemləri yaradan səbəblərin aradan qaldırılması tədbirləri daha səmərəlidir.

Bütün bunları nəzərə alaraq, ölkəmizdə iş yerlərinin rəsmiləşdirilməsi və əmək münasibətlərinə vergi nəzarəti işinin təkmilləşdirilməsi üzrə həyata keçirilən tədbirlər müstəvisində beynəlxalq təcrübəyə əsaslanan konkret tədbirlərin, o cümlədən podratçıların subpodratçıların vergi davranışına görə məsuliyyətinin müəyyən edilməsi, əmək müqavilələrinin məcburi qeydiyyatı üzrə qanunvericilik bazasının formalaşdırılması, əmək müqavilələrinin məcburi qeydiyyatı üçün vahid hökumət qeydiyyat portalının yaradılması, kiçikhəcmli iş seqmentləri sahəsində əmək qanunvericiliyinin sadələşdirilməsi və bəyan edilməmiş iş üzrə daimi vergi nəzarəti strukturunun yaradılmasının nəzərdən keçirilməsi faydalı hesab olunur.

**Beynəlxalq münasibətlər idarəsi**

krossvord



**Yuxarıdan aşağı:** 1.Bir sıra ölkələrdə pul vahidi; 2.Latın dilindən tərcümədə mükafat mənasını verir; 3.Triqonometrik funksiya. Qarşı katetin qonşu katetə olan nisbəti; 4.Quba rayonunda kənd; 5.Amerikalı maliyyəçi, investor, iş adamı, siyasi fəal və filantropu. «Açıq cəmiyyət» nəzəriyyəsinin tanınmış təmsilçisi, eyniadlı institutun qurucusu; 6.Avstriyada şəhər. Ölkənin qərbində, İnn çayının sahilində yerləşir; 7.Gizliquyruqlular fəsiləsinə aid heyvan cinsi; 11.Hər hansı fiqur almaq üçün əvvəlcədən hazırlanmış forma, şablon; 13.Kişi kostyumu; 15.İspan öküz döyüşündə əsas iştirakçı, öküzü öldürən; 16.Görkəmli Misir yazıçısı, tanınmış roman ustası, dramaturq, ssenarist; 17.Klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair-filosof (1126-1199). Onun ictimai-fəlsəfi məzmunlu əsərlərinə «Şiniyyə» və «Mədain xərabələri» qəsidələri, «Həbsiyyə» şeirləri və «Töhfətul-İraqeyn» poeması daxildir; 18.Alman dilindən tərcüməsi «rəhbər», «lider», «öncül» deməkdir. Üçüncü reyxdə dövlət başçısının rəsmi vəzifəsi; 20.Kürdəmir rayonunda kənd; 22.Azərbaycan mətbəxinin populyar xörəklərindən biri.

**Soldan sağa:** 1.Maliyyə qurumundan üzərinə ödəniş öhdəliyi götürən fiziki və ya hüquqi şəxs; 5.Alkoqollu içkilərin əsas tərkib hissəsi; 8.Rusiya Federasiyasının Voronej vilayətindən keçən çay; 9.Kseroqrafiyanın banisinin adı (1906-1968). O, sənədlərin üzünü tez və rahat çap edən aparat kəşf etmişdir. Bütün dünyada «kseroks» adlandırılan aparat onun kəşfidir; 10.Okeanlarda üzən çox iri buz parçaları; 12.Balıq növü. Qida kimi dünyada ən təhlükəli məhsullardan sayılır, lakin Yaponiya mətbəxində xüsusi yer tutur; 14.Şəki xanı. Məhəmmədhüseyn xanın oğlu; 16.Məşhur rus yazıçısı İ.S.Turgenevin populyar hekayəsi; 19.Kuba diktatoru (1901-1973); 21.Elmi kommunizm nəzəriyyəsinin banilərindən birinin adı (1844-1900); 23.Qatıq və müxtəlif tərəvəzlərdən hazırlanan milli xörək; 24.Kabbalanın ən məşhur kitabı sayılır. İbranicə «şəfəq», «işıq» deməkdir; 25.XIX əsr Azərbaycan şairi və maarifpərvəri (1835-1888).

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Vaqif; 2.Lamer; 3.Brayton; 4.Luanda; 5.Frank; 6.Reagent; 7.Medison Avenü; 12.Motsart; 13.Məlikov; 15.Apokrif; 16.Dnestr; 18.Badam; 20.Kapur (Rac); 21.Rulet.

**Solda sağa:** 1.Velobol; 5.Forum; 8.Qumbara; 9.Aland; 10. Fırat *(Arslan)*; 11.Dikkens *(Çarlz)*; 12.Mimino; 14.Fayton; 17.Taliban; 19.Oskar; 22.Akkad; 23.Sarapul; 24.Tuvim *(Yulian)*; 25.Referat.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

# İlk peşəkar velosiped komandamız qeydiyyatdan keçib

Azərbaycanın ilk kontinental peşəkar velosiped komandası olan «SYNERGY-BAKU CYCLING PROJECT» Beynəlxalq Velosipedçilər İttifaqında rəsmi qeydiyyatdan keçib. Azərbaycan Velosiped İdmanı Federasiyasından aldığımız məlumata görə, komandamız bu ildən etibarən bir sıra nüfuzlu beynəlxalq yarışlarda iştirak edəcək, gələn ildən isə 2016-cı il Yay Olimpiya Oyunlarına qatılmaq üçün lisenziyalar uğrunda mübarizə aparacaqdır.

Qeyd edək ki, komandanın tərkibində Azərbaycan velosipedçiləri ilə yanaşı, Böyük Britaniya, Danimarka, Yeni Zelandiya, Almaniya, Rusiya, Ukrayna və Malayziyadan olan idmançılar da var. Bir neçə gündən sonra «SYNERGY-BAKU CYCLING PROJECT» «Le Tour de Langkawi 2013» beynəlxalq turuna qatılacaq. Veloyürüş fevralın 21-dən martın 2-dək Malayziyada keçiriləcək. Sonra velosipedçilərimiz Avstraliyada təlim-məşq toplanışı keçəcək, aprelin ortalarında isə Bakıya dönəcəklər.



# Azərbaycan güləşçiləri beynəlxalq turnirdən 3 medalla qayıtdılar

*Azərbaycan idmançıları İstanbulda 12 ölkədən 120 güləşçinin iştirakı ilə keçirilən 31-ci Beynəlxalq Vəhbi Əmrə yunan-Roma güləşi turnirində 1 qızıl və 2 bürünc medal qazanmışlar.*

Turnirin ilk günü 66 kiloqram çəki dərəcəsində finalda iranlı Məhəmməd Kərimini məğlub edən azərbaycanlı güləşçi Rəsul Çunayev qızıl medal qazanmışdır. Həmin çəki dərəcəsində ölkəmizi təmsil edən Vitali Rəhimov turniri bürünc medalla başa vurmuşdur. Digər güləşçimiz - 74 kiloqram çəki dərəcəsində yarışan Niyaməddin İbrahimov Rusiya Federasiyasını təmsil edən erməni Qarik Babayanı məğlub edərək bürünc medala sahib olmuşdur. Turnirdə komanda hesabında Türkiyə birinci, Rusiya Federasiyası isə ikinci yeri tutmuşdur. Azərbaycan yığma komandası turniri beşinci yerdə başa vurmuşdur.

Görüşlərin idarə olunmasında həmyerlimiz, beynəlxalq dərəcəli hakim Asif Şirəliyev ölkəmizi təmsil etmişdir.



# Üzgüçülük üzrə ölkə çempionatı başa çatıb

«İrəli» İctimai Birliyinin (İB) nəzdindəki idman mərkəzi və «Start» əyləncə mərkəzinin birgə təşkilatçılığı ilə gənclər arasında üzgüçülük üzrə keçirilən çempionat başa çatmışdır. İB-nin mətbuat xidmətindən bildirmişlər ki, turnir 4 gün davam etmişdir. Yarışlarda Ruslan Məmmədov birinci, Elmar İsrafilli ikinci, İlkin Səmədov isə üçüncü yeri tutmuşlar. Qaliblərə «İrəli» idman mərkəzi tərəfindən diplom və hədiyyələr təqdim olunmuşdur.

# Sərbəst güləşçilərimiz xatirə turnirində iştirak edəcəklər

***Fevralın 9-10-da Türkiyənin paytaxtı Ankara şəhərində Yaşar Doğunun xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə 41-ci beynəlxalq turnir keçiriləcəkdir.***

Azərbaycan Güləş Federasiyasından yerilən xəbərə görə, sərbəst güləş üzrə yığma komandamızın üzvləri baş məşqçi Saypulla Absaidov və məşqçi Elman Əsgərovun rəhbərliyi altında turnirdə öz qüvvələrini sınayacaqlar. Heyətdə Yaşar Əliyev (55 kq), Hacı Əliyev, Əhmədnəbi Qvrazatilov (hər ikisi 60 kq), Məhəmməd Müslümov, Hacımurad Ömərov (hər ikisi 66 kq), Aleksandr Qostiyev (74 kq), Məhəmmədhacı Xatiyev (84 kq), Xetaq Qazyumov (96 kq) və Cəmaləddin Məhəmmədov (120 kq) yer almışlar.

Görüşlərin idarə olunmasında beynəlxalq dərəcəli hakim Sədi Quliyev ölkəmizi təmsil edəcəkdir.

mozaika

tam ciddi

# Maradona üçün vergi azadlığı

Həm oynadığı oyun, həm də yaşadığı həyat ilə XX əsrin əfsanəsinə çevrilmiş şəxsiyyətlərdən olan Dieqo Maradonaya qarşı irəli sürülmüş vergi iddialarını İtaliya məhkəməsi təmin etməmişdir. Dieqo Maradona, eləcə də Braziliyanın iki futbolçusunun - Kareka i Alemaonun vəkilləri bildirmişlər ki, İtaliyada vergi məsələləri ilə məşğul olan ən yüksək məhkəmə instansiyası 1980-ci illərdə ölkənin «Napoli» klubunda oynamış bu futbolçulara qarşı vergi orqanlarının qaldırdıqları tələblərin qanunamüvafiq olmadığı barədə qərar çıxarmışdır. İtaliya vergi orqanları tərəfindən Maradona 40 mln. avro məbləğində vergi yayındırmaqda ittiham olunurdu. Maradonanın vəkili Ancelo Pizaninin bildirdiyinə görə, «bu vergi dəhşəti axır ki, sona çatdı». Maradonanın özü isə İtaliya hökumətinə qarşı 40 mln. məbləğində iddia qaldırmaq fikrində olduğunu bəyan edib. Futbolçu indiyə qədər aparılmış məhkəmə prosesləri zamanı ona dəyən ziyanın bu qədər olduğunu bildirib.

Qeyd edək ki, Maradona ilə İtaliyanın vergi orqanları arasında münaqişə on il bundan əvvəl yaranmışdı. Futbolçunu 1990-1991-ci illər üzrə vergidən yayınmağa görə ittiham edirdilər. Bu ittihama görə Maradona İtaliyaya sərbəst gedib-gələ bilmirdi. Maradonanın sonuncu iş yeri isə Birləşmiş Ərəb Əmirliklərinin «Əl-Vəsl» klubu olub - o, 2012-ci ilin iyul ayına qədər bu komandanın baş məşqçisi kimi fəaliyyət göstərib.



apaşdırma

# Aspirinlə ehtiyatlı olun!

«JAMA Internal» adlı beynəlxalq səhiyyə jurnalında Avstraliya alimlərinin maraqlı bir elmi araşdırmasının nəticələri nəşr olunmuşdur. Sidney Universitetinin təşəbbüsü ilə on beş il davam etmiş elmi araşdırmaya həm müntəzəm olaraq aspirin qəbul edən, həm də aspirindən heç istifadə etməyən şəxslər qatılmışlar. Araşdırmaya qoşulmuş 2 min 389 adamın hər on nəfərindən biri həftədə ən azı bir aspirin qəbul edən şəxs olmuşdur. Alimlər orta yaşı 60 olan iştirakçıların araşdırmanın 5-ci, 10-cu və 15-ci illərində görmə qabiliyyətlərini müayinədən keçirmişlər. Araşdırmanın sonunda müntəzəm və uzun müddət aspirin qəbul edən şəxslərdə yaşla bağlı olaraq görmə mərkəzində meydana gələn problemlər təhlil edilmişdir. Belə məlum olmuşdur ki, aspirin qəbul edənlər arasında selikli qişanın aşınması nəticəsində görmə qabiliyyətini itirənlər 9,3%, aspirindən istifadə etməyənlərdə isə 3,7% təşkil etmişdir. Alimlərin fikrincə, yaşla bağlı olaraq meydana gələn selikli qişanın aşınması qan damarlarının böyüməsinə səbəb olur ki, burada aspirinlə yanaşı, yaşın çoxluğu, siqaret, eləcə də genetika kimi faktorlar da öz rolunu oynayır.

özümüzü tanıyaq

# Cavanşir *(616-669)*



«Bir zaman, sən hələ uşaq ikən, davada düşmənin polad qılıncı məni sinəmdən yaraladı. Mən ağlamadım, oğlum! «Cavanşirim sağ olsun!» dedim. Evə qayıtdım. Sənin sinəni təzə al qanıma boyadım. Mən davasız-dərmansız sağaldım. Sən də böyüyüb igid oldun. İndi vuruş meydanına gedirsən. Atanı da, məni də sən əvəz edirsən. Çalış ki, düşmən səni arxadan vurmasın. Sinədən aldığın yaradan sənə ölüm yoxdur. Ananın qızıl qanına xəncər batmaz».

Böyük yazıçımız Mehdi Hüseynin «Odlu qılınc» hekayəsində Cavanşir düşmən üstünə bu ana öyüdü ilə yola salınır. O vaxt - VII əsrdə Qafqaz Albaniyası öz ağır günlərini yaşayırdı. Cənubdan Sasani İranı hücum çəkərək, xristianlığı qəbul etmiş Qafqaz Albaniyasında zərdüştiliyi yenidən bərpa etmək istəyir, Qərbdən Bizans təzyiq göstərərək, Alban kilsəsini öz nəzarətinə almağa çalışır, şimaldan türk-xəzərlə təzyiqi artırır, cənubdan isə müsəlman ərzblər yürüş edirdilər.

Ərəblərlə son döyüşlərdə gənc alban şahzadəsi, Girdman çayının sahillərində yerləşən Girdman feodal vilayətinin hakimi Mehrani Qriqor Varazın oğlu Cavanşir Sasanilərlə birgə döyüşə girir.

Cavanşir 7 il sərasər öz dəstəsi ilə ərəblərə qarşı döyüşmüş, özünü cəsur əsgər, istedadlı sərkərdə kimi göstərmişdi. 636-cı ildə sasanilərin qədim paytaxtı Mədain yaxınlığında farslarla ərəblər arasında daha bir döyüş olur. Bu, ərəblərdən ötrü olduqca əhəmiyyətli bir döyüş idi. Sasani sərkərdəsi Rüstəmin komandanlığı altında 80 minlik Atropatena ordusunun tərkibində Cavanşirin dəstəsi də vuruşurdu. Fars ordusu bu döyüşdə məğlubiyyətə uğrayır, Cavanşirin dəstəsi isə Atropatenaya çəkilir.

Tarixi salnamələr Cavanşirin bu döyüşdən sonra da bir neçə parlaq qələbə qazandığını göstərir. İran şahənşahı Yezdəgerd Cavanşirin xüsusi xidmətlərini nəzərə alaraq, ona dəstəsinin önündə aparmaq üçün bayraq, zil səsli şeypurlar, iki qızıl mizraq və qızıl suyuna çəkilmiş qalxanlar verir. Şahənşah Cavanşiri bütün qoşun başçılarından əziz tutur. Onu qiymətli daş-qaşlarla işlənmiş qızıl kəmərlə, qızıl dəstəkli qılıncla, qızıl qolbaqla və çox gözəl bir tacla mükafatlandırır. Həmçinin ona mirvari və incilərlə bəzədilmiş bazubənd verir, sinəsinə bir neçə can mirvari düzür. Cavanşir daha bir neçə döyüşdə iştirak edəndən sonra anlayır ki, Sasanilərin hökmranlığına çox qalmır və elə həmin il vətəninə qayıdır. Düz yeddi il Cavanşir bu ağır döyüşlərdə iştirak edir. İki ağır yara alandan sonra onlarla vidalaşır. Ərəblərlə mübarizədə Bizansın zəifləməsi Cavanşirə imkan verir ki, onun asılılığından çıxsın.

667-ci ildə Cavanşir xilafətin paytaxtına danışıqlara yola düşür. Xəlifə onu adına layiq bir tərzdə təntənə ilə qarşılayır və rəsmən Albaniya knyazı kimi qəbul edir. Cavanşirin diplomatik bacarığı və şəxsi keyfiyyətləri onun tezliklə xəlifə ilə dostluq münasibətləri yaratması üçün səbəb olur. Üç il sonra Cavanşir xəlifədən onun Bizans imperatoru ilə danışıqlarında vasitəçisi sifətilə Şam şəhərinə getmək təklifi alır. Cavanşir vasitəçi kimi də öz işinin öhdəsindən uğurla gəlir. Bundan sonra xəlifə Cavanşirin Albaniyaya qoyulmuş vergilərin üçdə birini ixtisar etmək təklifinə razılıq verir. Xəlifə, həmçinin, Sünik vilayətini Cavanşirin təbeçiliyinə verir.

Cavanşirin müsəlman xilafəti ilə yaxınlaşması Azərbaycan tarixində, ölkənin islamlaşması baxımından mühüm rol oynayır. Bəlkə də xristian meyilli feodalların ona qarşı sui-qəsd hazırlamaları da elə bununla şərtlənirdi. Cavanşir həmin qəsd iştirakçılarından birinin ona vurduğu ağır yaralardan 669-cu ildə vəfat edir.

Cavanşirin ölümündən az sonra Qafqaz Albaniyası ərəblər tərəfindən ram olunur və onun əhalisinin əksəriyyəti İslamı qəbul edir. Dağlıq yerlərdə islamlaşma prosesi bir qədər uzun çəkir.

Müdriklər deyib ki...

***«Vətən sevgisindən əxlaq gözəlliyi, əxlaq gözəlliyindən isə Vətən sevgisi yaranır».***

***Şarl de Monteskyö (1689-1755)***



sağlam həyat tərzi

# Qış xəstəliklərinin qənimi

Tibb mütəxəssisləri qış fəslinin ən faydalı qidalarından birinin turp olduğu qənaətindədirlər. Turpun tərkibindəki dəmir həzm sistemini gücləndirir və gündəlik enerji ehtiyacının ödənilməsində mühüm rol oynayır. Kalsium və potasium qan dövranını sürətləndirərək qanda laxta yaranmasının qarşısını alır. B2 vitamini ilə zəngin olan turp çəkinin artmasını nəzarətdə saxlamağa kömək edir. Turp qaraciyəri qüvvətləndirir və şişkinliyini aradan qaldırır. Böyrəkdəki qumları və öd daşlarını tökmək üçün, eləcə də revmatizmə qarşı faydalıdır. Turp öskürəyi kəsir, sidikqovucudur və qəbizliyi aradan qaldırır. Turpun mikroböldürücü xüsusiyyəti var, orqanizmi və damaqları gücləndirir. Ürək-damar xəstəliklərinə qarşı istifadə olunur, şəkər xəstələri üçün çox xeyirlidir. Turpun şirəsindən isə damar sərtliyinə və yuxusuzluğa qarşı istifadə olunur. Turpdan süfrədə salat kimi də istifadə etmək olur.



### «Bahar salatı» hazırlamaq üçün

- 100 qr turp (ağ və qırmızı);
- yarım yumurta;
- 40 qr xiyar;
- 40 qr yerkökü;
- 10 qr yaşıl kahı götürülür.

Ağ turpun qabığı soyulur. Ağ və ya qırmızı turp nazik dilimlərlə doğranır və təpəcik şəklində boşqaba yığılır, dairəvi kəsilmiş xiyar, yerkökü, dilimlərə bölünmüş yumurta və kahı ilə bəzənir. Üstünə şüyüd səpilir.